Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

Tətbiqi
Tədqiqatlar
Fondu

*“Qərbi Azərbaycanın tarixi və mədəni köklərinin araşdırılması və təbliği” layihəsi çərçivəsində*

*İBRAHİM ƏLİYEV*

# QƏRBİ AZƏRBAYCANIN TARİXİ VƏ MƏDƏNİ İRSİ

*Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.*

*Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.*

Bakı - 2023

**“Qərbi Azərbaycanın tarixi və mədəni irsi”**

ATMU-nun “İctimai fənlər” kafedrasının
kitabın hazırlanmasında əməyi olmuş əməkdaşları:
t.e.d. prof. M.Əsədova
s.ü.f.d. dos. G.Qafarova
s.ü.f.d. dos. V.Məmmədzadə
i.ü.f.d. dos. N.Süleymanova

Kitab əzəli torpaqlarımız olan Qərbi Azərbaycan ərazilərində xalqımızın tarixi və mədəni irsinin araşdırılması, onların haqqında həqiqətin ortaya qoyulması, onların ermənilər tərəfindən saxtalaşdırılmasına aydınlıq gətirilməsinə həsr edilmişdir. Geniş yazılı və maddi mənbələrdən əldə edilmiş məlumatlar əsasında ermənilərin və onların havadarlarının saxtakarlıqlarının məqsədləri, hədəflərinin işıqlandırılmasına çalışmışıq. Məqsəd tarixi həqiqətləri ölkə və dünya ictimaiyyətinə çatdırmaq, erməni yalanlarının və miflərinin ifşasına töhfə verməkdir.

Təəssüflər olsun ki, Azərbaycanın indi Ermənistan adlandırılan ərazilərində milli mədəni irsimizə, real tariximizə ağır zərbələr vurulmuşdur. Xristianlıq dövrünə aid olan abidələrimiz erməniləşdirilmiş, müsəlman abidələrimiz məhv edilmiş, tarixi yer adları, toponimlər dəyişdirilmişdir. Bizim bu tədqiqatda məqsədimiz tarixi və mədəni izlərimizi bərpa etmək, onları yaşatmaqdır. Düşünürük ki, bu kitab həmin məqsədlərə çatılmasında öz rolunu oynayacaq.

Bakı, “RAFPOLİQRAF” nəşriyyatı, 2023

© “TTF” İB

# GİRİŞ

Tətbiqi Tədqiqatlar Fondunun Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Qərbi Azərbaycanın tarixi və mədəni köklərinin araşdırılması və təbliği" layihəsi müasir dövrün aktual problemlərindən birini əhatə edir. Zaman keçdikcə dünyada vəziyyət dəyişir. Mövcud dünya nizamında baş verən dəyişikliklər yeni reallıqların öz yerini tutmasına gətirib çıxarır. Dövlətlərin durumunda baş verən dəyişikliklər vaxtilə əsarət altına düşmüş, haqqı tapdanmış xalqlara öz müstəqilliklərini bərpa etməyə, haqqını özünə qaytarmağa imkan verir. Belə bir məqam müasir dövrdə yaşanır. Azərbaycan da öz siyasi müstəqilliyini əldə etdikdən sonra inkişaf edir, dünya miqyasında özünə məxsus olan yerini tutur, Qarabağ müharibələrinin yekunu olaraq Azərbaycanın bütün sərhədləri daxilində suverenliyini təsdiq etməsi, beynəlxalq aləmdə haqqının tanınmasına nail olması, dünya iqtisadi məkanında layiqli yerini tutması onun düzgün istiqamətdə inkişaf etdiyinin aşkar sübutudur.

Bu gün Azərbaycanın maraqları, onun haqqı ilə hesablaşdırılır. Onun maraqlarına münasibətdə ikili yanaşma standartları hər addımda müşahidə edilsə də, Azərbaycanın möhkəm mövqeyi, qəti iradəsi sayəsində yekun olaraq haqqı tanınır.

Azərbaycan tarixi boyu, xüsusilə XIX-XX əsrlərdə çox ədalətsizliklə üzləşməli olub. Ərazisi işğal olunaraq, güclü qonşuları tərəfindən bölüşdürülmüşdü, dövlətçiliyi ləğv edilmiş, torpaqlarının xeyli hissəsi qonşularına verilmişdi. İtirdiklərini geri qaytara bilməməsi üçün onun iradəsini qırmağa, tarixini və mənəviyyatını saxtalaşdırmağa çalışmışlar. Lakin tarix sübut etdi ki, bu iradəni məhv etmək mümkün olmamışdır. İtirilənlər qayıtmalıdır, Azərbaycanın haqqı bütün tarixi torpaqlarında bərpa olmalıdır.

İndiki nəslin, onun gənclərinin, ziyalılarının müqəddəs borcu bu haqqın arxasında durmaq, onun yerini tapmasına nail olmaqdır. Bu məsələ Azərbaycanın indiki sərhədlərindən kənarda olan ərazilərdə tarixi haqqımıza, mədəni irsimizə sahib olmaq, bu həqiqəti dünyada tanıtmaqdır.

Dünyada mövcud olan beynəlxalq normalardan biri sərhədlərin toxunulmazlığı məsələsidir. Biz bu qanuna hörmət edirik, lakin bizə aid

olanı inkar etmək, onları unutmaq fikrimiz yoxdur. Ən azı biz həqiqi tariximizi bilməliyik, bizə məxsus olan mədəniyyətə sahiblik etməliyik.

Ərazilərimizin bir hissəsinin daxil olduğu qonşu dövlətlərdə haqqımıza girilməsinin şahidi oluruq. Burada bizim tarixi torpaqlarımızda Rusiya imperiyasının və Sovet rejiminin yaratmış olduğu Ermənistanda tariximizə, mədəniyyətimizə, yer adlarımıza, abidələrimizə qarşı düşmənçiliyin qatı nümunələrindən birini görürük. Buna görə də həmin məsələlərin qaldırılması, işıqlandırılması, dünyaya çatdırılması, yaddaşlarımıza həkk olunması onların qayıtması üçün vacib şərtlərdəndir.

# AZƏRBAYCAN ƏRAZİLƏRİNƏ ERMƏNİ KÖÇÜNÜN TARİXİNDƏN

Saxta erməni tarixi, saxta erməni statistikası tarix boyu Qafqazın və bir sıra digər regionların həyatına soxulmuş ermənilərin varlığını müşayiət edən bir reallıqdır. Bu xalqın tarixi dolaşıq əfsanələr, müəmmalı miflərlə doludur. Əvvəla, onu qeyd etmək vacibdir ki, ağılasığmaz əfsanələr, miflər onların formalaşmış düşüncəninin ayrılmaz hissəsidir. Onların beyinləri yuyulmalara, əsassız ideyaların məqsədyönlü təlqin edilməsinə məruz qalmış, bu gün də gülüş doğuran inancların oturuşmasına səbəb olmuşdur. Onlar əvəzolunmazlıqlarına, müqəddəsliklərinə, əzabkeşliklərinə özləri də inanmış, həmin ideyaların əsirinə çevrilmişlər. Bu proses təsadüfən baş verməmişdir. O, ermənilərin ayrı-ayrı güclərin alətinə çevrilməsi ilə sıx bağlıdır.

Ermənilərin aktiv şəkildə böyük dövlətlərin vasitə ola bilmək cəhətləri ilə diqqəti cəlb etməsi Avropa dövlətlərinin şərqdə müstəmləkəçilik fəaliyyətinin güclənməsi ilə sıx bağlılığı vardır. Onlar dini mənsubiyyəti, etnik xüsusiyyətləri, çoxbilmişlikləri, qulluqda durmaq qabiliyyətləri ilə müştərilərinin diqqətini cəlb etmiş, fəal şəkildə "xidmətlərə" cəlb edilmişlər.

Ermənilərin onlar qarşısında qoyulmuş "vacib" funksiyaları yerinə yetirmələri üçün onlar üçün bir sıra hazırlıq işləri həyata keçirilmişdir:

a. Onlar lazım olan regiona cəmləşdirilmiş və fəaliyyətləri üçün həyati şərait təmin edilmişdir.

b. Onların beyinləri uydurma ideyalarla, özünün böyüklüyü və dəyərliliyi haqqında təsəvvürlə doldurulmuş, əleyhinə fəaliyyət göstərəcəkləri xalqa qarşı nifrət hissi, düşmənçilik münasibətləri formalaşdırılmışdır.

c. Əzabkeş, məhrumiyyətlərə məruz qalmış, zarıyan bir toplum düşüncəsi təlqin edilmişdir.

d. Əhatəsində yaşadıqları xalqların əleyhinə göstərdikləri "XİDMƏTLƏRİ" müqabilində bol-bol mükafatlandırılmışlar.

Ermənilərin Cənubi Qafqazda məskunlaşdırılmasının və onlardan qonşu müsəlman xalqlarına qarşı istifadə olunmasının müştəriləri çox olmuşdur. Lakin onların içərisində daha qabağa düşəni və ermənilərin bu keyfiyyətlərindən daha aktiv istifadə edəni Rusiya olmuşdur. Rusiya bu

amildən birinci növbədə Osmanlı türklərinə qarşı istifadə etsə də, eyni zamanda türk-müsəlman dünyasının bir hissəsi olan Cənubi Qafqazda tətbiq edir, erməni amilini regionda yeritdiyi siyasətin vacib elementi kimi istifadə edirdi. Cənubi Qafqazda ermənilərin kökü qondarmadır ki, bunu da tarixi faktlar aşkar şəkildə təsdiq edir.

Ermənilər barədə faktlara müraciət edək. Qərbi Azərbaycan ərazisində ermənilərin məskunlaşması o qədər də qədim tarixə malik deyildir. Bu da onların daha çox son yüzilliklərdə olduqları zamanla bağlıdır. Uzun əsrlər boyu ermənilərin tarixi elə bir əhəmiyyət kəsb etməmişdir. Bu xalqın formalaşması, miqrasiyası başqa qonşu xalqların tarixindən elə ciddi fərqə malik deyildir. Müxtəlif vaxtlarda miqyasca o qədər də böyük olmayan dövlətə malik olmuş ermənilər onların etnik və dini mənsubiyyəti kimi dövlətçilik tarixləri də qarışdırılmış, şişirdilmiş, əfsanələşdirilmiş və bu formada dünyaya təqdim olunmuşdur.

Hazırda dünyada ermənilərin sayı başqa xalqlarla müqayisədə o qədər də çox deyildir. Müxtəlif mənbələrdə onların sayı 10-15 milyon nəfər civarında qeyd edilir. Lakin bu sayın cüzi olmasına baxmayaraq dünyada böyük səs-küyə səbəb olması maraqlıdır. Müasir dövrdə ermənilərin xarakterini, onların müasir tarixdə yerləri, əhəmiyyətləri, ətraflarında yaradılmış ağlasığmaz miflərin əsl mahiyyətini aydınlaşdırmaq üçün bir sıra məsələlərə diqqət yetirmək faydalıdır.

Ermənilərin bir toplum kimi diqqət mərkəzinə düşməsi onların son yüzilliklərdə dünyanın müstəmləkələndirilməsi prosesi ilə sıx şəkildə bağlıdır.

XIX əsrin əvvəllərində Cənubi Qafqazın Rusiya tərəfindən işğalına qədər mövcud olan tarixi mənbələr, o cümlədən statistik məlumatlar ermənilərin bu ərazilərin avtoxton əhalisinə aid olmadığını aşkar şəkildə sübut edir. Sonuncu köçmələrə qədər onların sayı diqqət çəkəcək qədər olmamışdır. Rusiya imperiyasının Cənubi Qafqazı işğal edərək bu regionda möhkəmlənmək anına qədər elə böyük bir əhəmiyyətə malik olmamışdır. Rusiya imperiyası regionda öz etnik-dini dayaqlarını yaratmaq üçün onları dəyərləndirmiş və həmin məqsəd üçün hazırlamışdır.

Ermənilərin qondarma tarixinin yazılması, xristianlığı qəbul edən ilk dövlət olmaları, qədim mədəniyyətə malik olmaları, əzabkeşlikləri haqqında əfsanə və miflərinin də təşəbbüskarları özləri olmamışdır. Ermənilərin xidmətində maraqlı olan qüvvələr həmin əfsanə və mifləri yaratmış, onların

özlərinin də bu istiqamətdə "yaradıcılıqlarını" həvəsləndirilmişlər. Bu istiqamətdə görülən işlər xüsusilə son yüzilliklər dövründə, xüsusilə Sovet dövründə geniş vüsət almışdır.

Müasir dövrdə mövcud olan Ermənistan dövləti Azərbaycan torpaqlarında yaradılmışdır. B.e. 387-ci ilində Sasani-Roma müharibəsinin yekununda ləğv edilən və iki imperiya arasında bölüşdürülən Ermənistan XX əsrin əvvəllərinə qədər müstəqil dövlətə malik olmamışlar. Həmin vaxtdan etibarən onların malik olduqları siyasi qurum bu və ya digər dövlətin tərkib hissəsi olan inzibati qurum olmuşdur. Ermənilər bu qurumları müstəqil dövlət kimi qələmə verməyə çalışsalar da, tarixi faktlar onun tərsini təsdiq edir. Ermənilərin son yüzilliklərdə tarix səhnəsinə çıxmış inzibati qurumları, dəfələrlə qeyd olunduğu kimi onların Rusiya imperiyası ərazisinə köçürülməsi və Azərbaycan ərazilərində yerləşdirilməsi ilə bağlıdır. XIX əsrin 30-cu illərində Qərbi Azərbaycan torpaqlarında yaradılmış "Erməni vilayəti" isə ermənilərin dövlətçilik ənənəsinin ifadəsindən daha çox Rusiya imperiyasının regionda ağalıq iddialarına xidmət edən məkrli bir planın tərkib hissəsi idi. Erməni vilayəti bir qədər sonra – 1848-ci ildə İrəvan quberniyasının yaradılmasına gətirib çıxardı. Bu quberniyanın mərkəzi tarixi Azərbaycan şəhəri İrəvan şəhəri, əhatəsi isə Qərbi Azərbaycan torpaqları olsa da oranın erməniləşdirilməsinə, yerli azərbaycan əhalisinin sıxışdırılmasına rus hakimiyyət dairələri xüsusi fikir verir, günbəgün möhkəmləndirilən erməni məkanının yaradılması, türk dünyasının parçalanmasına hədəflənmiş geosiyasi reallığın oturuşmasına hesablanmışdı. Nəhayət, 1917-ci ildə Rusiyada fevral çevrilişindən sonra imperiyanın iflası anında Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması ermənilərə də vəziyyətdən istifadə edərək yerləşdikləri Azərbaycan ərazilərində erməni dövlətinin əsasını qoymağa imkan verdi. Ermənistan dövlətinin yaranmasında həlledici rolu oynayan imperiyanın onlar üçün yaratdığı əlverişli mühit və geosiyasi vəziyyət olmuşdur.

Azərbaycan torpaqlarında dövlət yaratmış ermənilər bu yerlərə gəldikləri gündən regionun onlara məxsus olduğunu sübut etmək üçün tarixi saxtalaşdırmaq, azərbaycan türklərinin tarixi və mədəni köklərini məhv etmək istiqamətində geniş fəaliyyt həyata keçirmişlər. Bu fəaliyyətin ən məhsuldar dövrü də məhz Sovet hakimiyyəti dövrünə təsadüf edir. Kommunist partiyası və sovet dövlətinin göstərişləri və bilavasitə dəstəyi ilə ermənilərin təxribatçı, saxtakarlıq fəaliyyəti istiqamətləndirilmiş, bunun

üçün maksimum şərait yaradılmışdır. Ermənilərin adından saxtalaşdırmalar təkcə ermənilər tərəfindən edilməmişdir. Onlara kənardan güclü maliyyə, metodoloği, metodiki, təşkilati dəstək verilmiş, bu işlər dünya miqyasında təbliğ edilmişdir.

Saxtalaşdırılan faktların xeyli hissəsi ermənilərin Cənubi Qafqazın yerli əhalisi olması tezisini sübut etməyə yönəldilmişdir. Özlərinin bu regionun avtoxton əhalisi olmasını cübut etməsi bu mənada həyati əhəmiyyət daşıyır.

Regionun çoxəsrlik tarixini nəzərdə keçirddikdə faktlar erməni iddialarının uydurma olduğunu hər addımda göstərir. Bu ərazilərə erməni köçündən danışarkən tarixin bütün mərhələlərinə diqqət yetirmək, real vəziyyəti ortaya qoymaq faydalıdır. Müasir dövrdə mövcud olan Ermənistan dövləti Azərbaycan torpaqlarında yaradılmışdır.

Qeyd olunduğu kimi ermənilərin məqsədyönlü şəkiildə Azərbaycan torpaqlarına köçürülməsi

XIX əsrin əvvəllərindən başlanmışdır. Bu vaxta qədər onların sayı regionda cüzi olmuşdur.

Erməni-Qriqoryan kilsəsi Eçmiədzində 1441-ci ildə gəlmiş, öz ətrafında azsaylı erməniləri birləşdirmişdir. Əvvəl-əvvəl onlar həmin kilsənin ətrafındakı mülkləri ya satın almış, ya da həmin dövrdə bu torpaqların daxil olduğu Azərbaycan dövlətlərinin onlara münasibətdə sərgilədikləri loyal münasibətdən bəhrələnərək güclənmiş, mülklərini genişləndirmişlər.

İrəvan xanlığı 15 mahala Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Rarçeniz, Səədli, Talın, Seyidli Ağsaqqallı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək, Göyçə mahallarına bölünürdü.

Göründüyü kimi xanlığın mahallarının adı, əhalisinin etnik tərkibi, toponimikası nöqteyi nəzərindən ermənilərin burada hər hansı dayaqlara malik olduğunu demək olmaz.

Bütövlükdə 14218 ailədə 77437 nəfərin yaşadığı məlumdur. Onlardan 10540 ailə və onlardakı 57364 nəfəri azərbaycanlılar, 3498 ailə və 20073 nəfər ermənilər olmuşdur. Faiz nisbətində ümumi əhalinin 74,07 faizini azərbaycanlılar, 25,93 faizini ermənilər təşkil etmişdir. Ermənilərin sayının bu regionda kütləvi şəkildə artması, birmənalı şəkildə Rusiyanın Cənubi Qafqazı işğal etməsi və məqsədyönlü şəkildə ermənilərin buraya köçürülməsi ilə dəyişir.

Rusiya işğalından dərhal sonra İrəvan və Naxçıvan xanlıqları ərazisini əhatə edən "Erməni vilayətinin" yaradılması da imperiyanın erməni köçü ilə bağlı uzunmüddətli niyyətlərini nümayiş etdirirdi. XIX əsr-XX əsrin əvvəllərində ermənilərin əraziyə köçürülməsi dinamikasına diqqət yetirdikdə bu göstəricilərin yüksələn xətlə inkişafını görmək olar.

1826-1828-ci illərdə Azərbaycanın əhalisinin ümumi sayı 550 min nəfərin 51 530 nəfəri (9,37%-i) ermənilər idisə, 1840-cı ildə 750 min nəfər əhalinin 159 086 nəfəri erməni idi. Göründüyü kimi həmin dövrdə artan 200 min nəfərin 80 %- nə qədərini ermənilər təşkil edirdi. Köçürülən ermənilərin sayının artması sonrakı illərin göstəricilərində aşkar şəkildə müşahidə edilir. Tarixi mənbələrdən götürülmüş faktlara əsaslanan cədvəl ermənilərin Azərbaycan ərazisində artım dinamikasını özündə əks etdirir.

## XIX ƏSR-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN SAYININ DİNAMİKASI

| | il | Azərbaycan əhalisinin ümumi sayı | onlardan ermənilər | |
|---|---|---|---|---|
| 1 | 1822-1826-cı illərdə | 550 000 nəfər | 51 530 nəfər | 9,37 % |
| 2 | XIX əsrin 40-cı illəri | 750 000 nəfər | 159,086 nəfər | 21% |
| 3 | 1873 | 1 779 699 nəfər | 334 242 nəfər | 19,05 % |
| 4 | 1886 | 2 186 500 nəfər | 690 615 nəfər | 32,04% |
| 5 | 1897 | 2 620 805 nəfər | 784 347 nəfər | 29,8% |
| 6 | 1916 | 3 756 596 nəfər | 1 208615 nəfər | 32,8 % |

Ermənilərin İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisində yerləşməsi daha yüksək olmuşdur.

Yuxarıda verilmiş cədvəldən göründüyü kimi Azərbaycan ərazilərin əhalisində ermənilərin sayı 1826-cı ildən 1916-cı ilə kimi 9,37 faizdən 32,8 faizə qədər artmışdır. Təbii ki belə artım təbii ola bilməadi. Bu say köçürülənlər hesabına artırdı və regionda yeridilən məkrli siyasətin tərkib hissəsi idi. Xüsusən, nəzərə almaq lazımdır ki, bu köç Sovet hakimiyyəti illərində daha aqressiv formada davam etdirilmişdir. Sovet dövləttinin sərhədlərindən quş səkə bilməyən vaxtlarda da ermənilər kütləvi şəkildə cəlb edilərək Ermənistana köçürüülmüş, orada və Qarabağda yerləşdirilmişlər.

Aşağıdakı cədvəldə ermənilərin XIXəsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycan ərazilərinə köçürülməsinin dinamikası verilmişdir.

## XIX ƏSRİN II YARISI-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN SAYININ DİNAMİKASI

| Qubernila | 1873-ci il | 1886-cı il | 1897-ci il | 1916-cı il |
|---|---|---|---|---|
| İrevan quberniyası | 221,191 | 375,700 | 439,926 | 669,871 |
| Yelizavetpol quberniyası | 99,918 | 258,324 | 292,188 | 418,859 |
| Bakı quberniyası | 13,133 | 56,591 | 52,233 | 119,885 |
| Cəmi | 334,242 | 690,615 | 784,347 | 1,208,615 |

İ.İ.Şopenin 1852-ci ildə nəşr edilmiş "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövründə vəziyyətinin yaddaş tarixi" kitabında verdiyi məlumata əsasən əhali sayında ermənilərin artımının göstəriciləri öz əksini tapmışdır. Bu faaktlarla hər kəs tanış ola bilər. Belə faktların qarşısında heç bir erməni təbliğatı dayana bilməz.

| Xanlığın ərazisində | | Müsəlmanlar | | Ermənilər | | Cəmi | | Müsəlmanlar | erm. |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ailə | Nəfər | Ailə | Nəfər | Ailə | Nəfər | % | % |
| | İrəvan şəhəri | 1807 | 7331 | 567 | 2369 | 2374 | 9700 | 75,6 | 24,4 |
| | Cəmi İrəvan xanlığı üzrə | 10540 | 57364 | 3498 | 20073 | 14218 | 77437 | 74,07 | 25,93 |
| **Mahallar üzrə** | | | | | | | | | |
| 1 | Qırxbulaq | 81 | 383 | 262 | 1396 | 343 | 1779 | 22,0 | 78,0 |
| 2 | Zəngibasar | 910 | 5413 | 133 | 603 | 1043 | 6016 | 90,0 | 10,0 |
| 3 | Gərnibasar | 753 | 4176 | 34 | 145 | 787 | 4321 | 97,0 | 3,0 |
| 4 | Vedibasar | 574 | 3449 | 2 | 15 | 756 | 3464 | 99,6 | 0,4 |
| 5 | Şərur | 1305 | 6010 | - | - | 1305 | 6510 | 100 0 | |
| 6 | Sürməli | 709 | 4832 | 935 | 5892 | 1644 | 10724 | 46,0 | 54,0 |
| 7 | Dərəkənd-Rarçeniz | 589 | 3267 | 1 | 5 | 590 | 3272 | 99,9 | 0,1 |
| 8 | Səədli | 160 | 1004 | - | - | 160 | 1004 | 100 0 | |
| 9 | Talın | 91 | 420 | 74 | 416 | 165 | 836 | 51,0 | 49,0 |
| 10 | Seyidli Ağsaqqallı | 311 | 1754 | 6 | 28 | 317 | 1782 | 99,0 | 1,0 |
| 11 | Sərdarabad | 276 | 1837 | 469 | 3214 | 745 | 5051 | 37,0 | 63,0 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 12 | Körpübasar | 400 | 2592 | 897 | 5290 | 1297 | 7882 | 33,0 | 67,0 |
| 13 | Abaran | - | - | 11 | 58 | 11 | 58 | 0 | 100 |
| 14 | Dərəçiçək | 231 | 1300 | 92 | 552 | 323 | 1852 | 71,0 | 29,0 |
| 15 | Göyçə | 999 | 5607 | 15 | 90 | 1014 | 5697 | 99,0 1,0 | |
| | Cəmi mahallar üzrə | 9196 | 49875 | 3498 | 20073 | 12874 | 69948 | 71,40 | 28,60 |
| **Tərəkəmə** | | | | | | | | | |
| | | 1344 | 7489 | - | - | 1344 | 7489 | | |
| | Cəmi İrəvan xanlığı üzrə | 10540 | 57364 | 3498 | 20073 | 14218 | 77437 | 74,07 | 25,93 |

Müasir dövrdə Azərbaycanın öz haqqını tələb etməyə tam haqqı vardır. Beynəlxaq hüquq normalarında sərhədlərin toğunulmazlığı prinsipi hazırkı dövlətlərin ərazilərinin dəyişdirilməsini qeyri-mümkün etdiyi bir dövrdə Azərbaycan öz halal haqqından imtina etməli deyildir. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olaraq onun iradəsinin ziddinə olaraq əlindən alınaraq ermənilərə verilmiş torpaqlarını tələb etməyə tam haqlıdır.

# CƏNUBİ QAFQAZDA RUSİYA SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ

Tətbiqi Tədqiqatlar Fondunun Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirdiyi *"Qərbi Azərbaycanın tarixi və mədəni köklərinin araşdırılması və təbliği"* layihəsi ölkəmizin və xalqımızın həyatında mühüm əhəmiyyət daşıyan bir məsələyə həsr olunmuşdur. Bu problem layihənin adından göründüyü kimi, doğma torpaqlarda milli tarixi və mədəni köklərimizin bir daha dərindən nəzərdən keçirilməsi, onların mənşəyinin , mənsubiyyətinin, spesifik xüsusiyyətlərinin, təkrarolunmaz çizgilərinin sistemli şəkildə araşdırılması, dünya ictimaiyyətinin diqqətinə çatdırılması, həmin məkanın Azərbaycana məxsusluğunu hər an vurğulanmasına nail olmaqdır. Tarixdə, onun bütün dövrlərində, xüsusən tarixin dönüş məqamlarında bu işi daha ardıcıl, daha intensiv şəkildə görülməsinə ehtiyac vardır. Bu dönüş anları isə ondan ibarətdir ki, dünya nizamı zaman-zaman qlobal dəyişikliklərə məruz qalır. Dövlətlərin, beynəlxalq güclərin, təbii tarixi proseslərin gedişində mövcud dünya nizamı pozularaq, yeni reallıqlara uyğun olaraq yenidən qurulur. Hər dəfə formalaşan yeni dünya nizamında bu və ya digər dövlətin yeri, sanbalı, nüfuzu, potensialı həmin dövlətin bir sıra vacib keyfiyyətlərinin yüksəkliyindən asılı olur.

Azərbaycan bir türk ölkəsi, müsəlman əsilli bir dövlət olaraq XX əsrin axırları-XXI əsrin əvvəllərində öz torpaqlarına, sərvətlərinə, tarixinə, mədəniyyətinə sahib çıxmaq, öz haqqını təsdiq etmək, dünyada öz layiq olduğu yerini tutmaq uğrunda uğurla fəaliyyət göstərir.

Hələ XVIII əsrin axırlarında parçalanaraq zəifləmiş, XIX əsrin əvvəllərində qonşu imperiyalar tərəfindən bölüşdürülmüş Azərbaycan asılılıq dövründə itkilərə məruz qalmışdır. Onun torpaqlarında yadellilər məskunlaşdırılmış, xeyli əraziləri qoparılaraq zəbt olunmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdiyi dönəmlərdə öz torpaqlarına sahib çıxmaq şansı əldə etsə də, bu işi axıra çatdıra bilməmişdir. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti öz torpaqlarını bir yerə toplamaq, öz ərazilərinə, sərvətlərinə, tarixinə və mədəniyyətinə sahib çıxmaq işini başa çatdıra bilməmişdir.




*Azərbaycanın 1919-cu ildə Parisdə çap olunmuş xəritəsi*

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşeviklər hakimiyyəti zəbt edərək imperiya siyasətini yeni formada davam etdirmişdilər. Onlar proletar internasionalizmi, xalqlar döstluğu kimi qondarma şüarları ilə pərdələnərək qeyri xalqları, o cümlədən Azərbaycan xalqına qarşı ayrı-seçkilik, düşmənçilik siyasətini davam etdirmişdilər. Sovet dövlətinin bütün mövcudluğu dövründə Azərbaycan torpaqlarının hissə-hissə Ermənistana verilməsi, azərbaycanlıların Ermənistan ərazisindən deportasiya edilərək onların yerinə xarici ölkələrdən gətirilmiş ermənilərin yerləşdirilməsi prosesi fasiləsiz olaraq həyata keçirilmişdir. Bununla paralel olaraq Ermənistan ərazisinə daxil edilmiş Qərbi Azərbaycanda xalqımızın milli köklərini silmək, onun mədəni irsini məhv etmək, bu ərazilərin ermənilərə məxsusluğunu sübut etmək üçün abidələr dağıdılmış, erməniləşdirilmiş, yer adları, toponimikası saxtalaşdırılmışdır. Bütün bu hərəkətlərə sovet dövlət orqanları nəinki mane olmamış, əksinə, özləri buna şərait yaratmış, türk-müsəlman əhalisinin tarixinə və mədəniyyətinə qarşı soyqırım siyasəti planlı şəkildə həyata keçirilmişdir.

XVIII-XIX əsrin əvvəllərində Cənubi Qafqaza can atan, ona imperiya ərazilərinə qatmaq arzusunda olan Rusiya imperiyası həmin ərazilərdə ağalığını əbədiləşdirmək üçün çoxşaxəli siyasət aparır, ictimai həyatın bütün sahələrində müvafiq siyasət həyata keçirirdi. Ağalıq alətlərdən biri kimi bu türk-müsəlman əhalisinin əksəriyyət təşkil etdiyi ərazidə imperiyanın dayaqlarını yaratmaq üçün yerli xristianlarından istifadə edirdilər. Lakin bu problemin köklü həlli üçün tarixən müsəlman ölkələrində yaşamış xristian ermənilərdən istifadə edirlər. Onlar başa düşürdülər ki, buraya köçürülən rus, alman, bidətçi və təriqətçi xristianların hesabına bu məsələni həll etmək mümkün deyildir. Rusiya imperiyasının Cənubi Qafqazda gözü və qulağı ola biləcək əhali hər zaman qonşularını satmaq vərdişinə malik olan ermənilərdir. Hələ rus imperatoru I Pyotr ermənilərin bu keyfiyyətinə diqqət yetirmiş, Cənubi Qafqazın işğalı və əsarət altında saxlanılmasında ermənilərin "xidmətindən" geniş istifadə olunmasını tövsiyə etmişdir.

XIX əsrin əvvəllərində Rusiya Cənubi Qafqaza daxil olaraq onu işğal etməsi zamanı Rusiya imperiyasının işğalçılıq siyasətinin tərkib hissəsi olan erməni amilindən istifadə planı daha aktiv və praktik mərhələyə daxil olur. Təsadüfi deyildir ki, Türkmənçay müqaviləsinin şərtlərinə görə İran dövlətinin ödədiyi təzminatın böyük hissəsi ermənilərin bu regiona köçürülməsi və məskunlaşdırılmasına sərf edildi. Ermənilər ən yaxşı və münbit torpaqlarda məskunlaşdırılır, vergilərdən azad edilir, imperiya idarə sistemində geniş təmsil olunurdular. Yeri gəlmişkən qeyd edək ki, ermənilərə edilən bu güzəştlər son zamanlara qədər davam etmişdir. Rusiya imperiyası, Sovetlər İttifaqı dövründə bu siyasət davam etdirilərək, daha da gücləndirilmişdir.



***1828-ci ildə bağlanmış Türrkmənçay müqaviləsindən sonra İrandan ermənilərin Şimali Azərbaycan ərazilərinə köçürülməsi***

Cənubi Qafqazda Rusiya imperiyası, Sovet dövləti və hazırkı Rusiya Federasiyası öz maraqlarına malik idi. Yeridilən siyasət bu maraqlara xidmət edirdi. Ermənilərin regionda yerləşdirilməsi yolu ilə imperiyanın dayaqlarını yaratmaq, türk-müsəlman əhalisini itaətdə saxlamaq üçün istifadə edilməsindən başqa Osmanlı dövlətinin əlaqələrini şərqə-türk dünyasının digər ölkələrinə əlaqəsini məhdudlaşdırmağa xidmət edirdi.

Türk-müsəlman köklərinin zəifləդiləsi, türk dünyasının birliyinin zəiflədilməsi üçün burada onların tarixi mədəni izlərinin zəiflədilməsi imperiyanın maraqlarına xidmət edirdi. Buna görə də Rusiya ermənilərə Cənubi Qafqazın mədəni irsinə qarşı dağıdıcı və saxtalaşdırıcı fəaliyyətinə maksimum şərait yaradır,

İlk növbədə Ermənilərin regionda kök salmasına əsas yaradan amil 1836-cı ildə alban katalikosluğunun ləğvi və unun maddi-və mənəvi irsinin erməni-qriqoryan kilsəsinə verilməsi oldu. Bu vaxta qədər cənubi Qafqazda ciddi bir əlaqəsi olmayan ermənilərə qüdrətli bir vasitə verilmiş oldu. Məhz həmin vaxtdan etibarən imperiya Rusiyasının planı və rəhbərliyi altında alban kilsəsinin minilliklərlə ölçülən tarixindən erməni əfsanələri uyduruldu, tarixi saxtalaşdırıldı, dini abidələri erməniləşdirildi. Cənubi Qafqazda məhz həmin dövrdən etibarən erməni kilsələri tikildi. O dövrdə olan alban kilsələri isə zahirən və daxilən dəyişdirilərək erməni kilsəsi kimi qələmə verildi.




***Ermənilərin Şimali Qafqaza sonradan köçürülməsi faktı heç də həmişə sirr olmamışdır. Hətta o hadisələrin ildönümləri rəsmi şəkildə qeyd olunmuş, şərəfinə abidələr qoyulmuş, medal buraxılmışdır.***

***Buraxılış ili: 1978***

Azərbaycana və onun Albaniya səhifəsinə aid olan yazılı mənbələrin də saxtalaşdırılaraq erməniləşdirilməsi də məhz XIX əsrin 30-cu illərindən sonrakı dövrdə baş vermişdir. Bizim eramızın müxrəlif əsrlərində yazılması iddia edilən “erməni mənbələri”nin əksəriyyəti də ya alban mənbələrinin saxtalaşdırılması hesabına, ya da yenicə tərtib edilərək qədim dövrlərə aid edilməsi hesabına ortaya çıxmışdı.

Ermənilərin Xaçkar adlandırdıqları daş plitələrin də yaranma tarixi XIX-XX əsrdən uzağa getmir. Bu daşları sonradan, xüsusən XX-XXI əsrlərdə yaradaraq Cənubi Qafqazın ermənilər üçün əlçatan yerlərində bol-bol yerləşdirmiş, sonra onları aşkar edərək ermənilərin tarixi köklərinin əyani sübutu kimi istifadə etmişlər.

Ermənilərin yerləşdirildikləri yerlərdə başlıca vəzifəsi müsəlman-türk əhalisi haqqında hakimiyyət orqanlarına məlumat toplamaq və ötürmək, onları itaətdə saxlanmasına dəstək olmaq, imperiya üçün təhlükə ola biləcək hər bir hərəkət haqqında xəbər vermək idi. Əvəzində isə onlar bol-bol mükafatlar alır, məskunlaşdıqları yerlərdə istədiklərini etmək imkanı əldə edirdilər. Onlardan biri də burada yerli əhalini sıxışdırmaq, yaşayış yerlərini ələ keçirmək, erməniləşdirmə və daha dərin kök salaraq imperiya hakimiyyətinin əbədiləşdirilməsinə xidmət etmək olmuşdur. Yerlərin, yaşayış məskənlərinin adları dəyişdirilir, maddi və mənəvi dəyərlər mənlmsənilir, tarix saxtalaşdırılır, əhali doğma yerlərindən didərgin salınırdı. Göründüyü kimi bu proses fasiləsiz şəkildə davam etmiş, günümüzə qədər gəlib çatmışdır.

Uzun zaman ərzində belə ləyaqətsiz və cəzasız fəaliyyət göstərən ermənilər hazırkı dövrdə ağalarının imkanlarının məhdudlaşması üzündən “xidmətlərinin” haqqını istədikləri səviyyədə ala bilməyəndə yeni ağa axtarışına çıxmış, dünyada yaranan yeni geosiyasi durumdan bəhrələnməyə çalışırlar. Beyinləri avantürist ideyalarla zəhərlənmiş ermənilər, xüsusən onların mövcud vəziyyətdən gəlir mənbəyi kimi istifadə edən siyasi elitası köhnə ideologiyadan istifadə edərək yeni ağalara xidmət etmək arzusundadırlar.

# QƏRBİ AZƏRBAYCANDA SARAYLAR, QALALAR

Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz və Ön Asiya dünyanın diqqətini cəlb edən ərazilərdən biri olmuşdur. Buraya dünyanın hər yerindən tticarət karvanları gəlib-getmiş, səyyahlar, ziyarətçilər, mütəfəkkirlər can atmışlar. Eyni zamanda bura tez-tez hücumlara məruz qalmış, hərbi toqquşmalarr meydanı olmuşdur. Buna görə də bu ərazilərdə çoxsaylı hərbi istehkamlar, qalalar, müdafiə sədləri qurulmuşdur.

Azərbaycanın bütün ərazisində, xüsusən də dağlıq yerlərdə bu cür müdafiə tikililəri çoxdur. O cümlədən Qərrbi Azərbaaycan torpaqlarında möhtəşəm qalalar, müdafiə qurğuları mövcud olmuşdur. Son yüzilliklərdə havadarlarının gücü sayəsində bu torpaqlaara gəlmiş və yekun olaraq Azərbaycan ərazilərində dövlətə malik olmuş ermənilər Azərbaycanın saraylarına, qalalarına, müdafiə tikililərinə sahib çıxmaq istəyir, bu hərbi abidələrin onlara məxsus olduğunu sübut etmək istəyirlər. Lakin mövcud olan tarixi faktlar, məntiqi araşdırmalar bu iddiaların əsassızlığını üzə çıxarır. Cöğrafi mövqe, tarixi miqrassiya reaalıqları, toponimika və digər əlamətlər Azərbaycanın bu yerzlərə, onun tarixi və mədəni irsinə haqqını aşkar şəkildə təsdiq edir.

## ❖ İRƏVAN QALASI

1504-cü ildə Səfəvi hökmdarı I Şah İsmayıl vəziri Rəvanqulu xana Zəngi çayının sahilində, indiki İrəvan şəhəri yerində qala tikmək göstərişi verir. Rəvanqulu xan tezliklə bu qala tikintisini başa çatdırır. Sonralar Osmanlı-Səfəvi müharibələri zamanı dağıdılan qala divarlarını 1582-1583-cü illərdə Osmanlı sərkərdəsi Fərhad paşa daha da möhkəmləndirir. Eni 790 m, uzunluğu 850 m olan qalanın divarları daşdan və çiy kərpicdən hörülmüşdü. Qalanın bayır divarının hündürlüyü 10 metrdən hündür idi və bu divarda 17 bürc vardı. XVII əsrin 2-ci yarısında buraya gəlmiş fransız səyyahı Jan Şardenin məlumatına görə yalnız azərbaycanlıların yaşadığı bu qalada 8 məscid, 800 yaşayış evi var idi. Xristian əhali şəhərdən kənarda yaşayırdı və qalaya yalnız gündüzlər ticarət etmək üçün gəlirmişlər.

İçqaladan təxminən 1 km məsafədə Keçiqala adlı ikinci – köməkçi qala yerləşirdi. Ümumiyyətlə İrəvan qalasının üst-üstə 50-60 bürcü, 3 möhkəm qapısı olmuşdur: 1) Cənubda Təbriz qapısı; 2) Şimalda Meydan qapısı, 3) Körpü qapısı.

1804-cü ildəki uğursuz cəhddən sonra 1827-ci ildə İrəvan qalası ruslar təfindən işğal olunur. 1853-cü ildə İrəvan qalası zəlzələ nəticəsində ciddi zədə alır. 1930-cu ildə qala tamamilə dağıdılır.





***İrəvan qalası***

## ❖ SƏRDAR SARAYI-XAN SARAYI

İrəvan qalası tikilən vaxtdan (1510) mövcud olan Xan Sarayı İrəvan Sərdarı Əmirqunə xan Qacar (1605- 1625) tərəfindən yenidən ucaldılmış, 1760-1770-ci illərdə İrəvan hakimi Hüseynəli xan (1762-1783) tərəfindən təkmilləşdirilmişdir. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784-1805) Sarayın şüşəbənd adı ilə tanınan Güzgülü salonunu və yay imarətini inşa etdirmişdir.

Sərdar Sarayı böyük qəbul otağının divarlarında Sərdar Hüseyn xanın, qardaşı Həsən xanın, farsların əfsanəvi qəhrəmanı Fəraməzin, Fətəli Şahın (1797- 1834), Abbas Mirzənin (1783-1833), Rüstəm və Söhrabın portretləri həkk edilmişdi. Saray 1913-1918-ci illərdə erməni millətçilərinin təcavüzünə məruz qalmış, dağıdılmışdır. Həmin portretlər 1913-cü ildə çıxarılıb Tiflisə aparılmışdır və onlardan bir neçəsi hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır. 1918-ci ildə isə ermənilər Sarayın binasını yerlə-yeksan etmişlər.



***Van qalasının və Sərdar sarayının Zəngi dərəsindən görünüşü.***



***İrəvan Sərdar sarayının Güzgülü salonunun interyeri (XVIII əsr).***

## ❖ TEYŞEBAİNİ QALASI



*Qırmızıtəpə yüksəkliyində qədim türk qalası (e. ə. VIII əsr).*



*Teyşebaini qala divarlarının qalıqları.*

Teyşebaini qaları Qərbi Azərbaycan ərazisində e.ə.VIII əsrin ortasında Urartu çarları tərəfindən Zəngi çayının kənarında, İrəvan şəhəri yaxınlığındakı Qırmızıtəpə yüksəkliyində e.ə. VIII əsrdə Urartu hökmdarları tərəfindən müharibə allahı Teyşebaininin şərəfinə salınmış qədim qala olmuşdur. Qalanın qalıqlarından göründüyü kimi onun möhtəşəm bir istehkama malik olması məlum olur. Bu qalanın e.ə. VI əsrin əvvəllərində Sak, Qamar və digər tayfalarla müharibə zamanı dağıdılmışdır.

## ❖ EREBUNİ QALASI



***Qədim türk qalası olan Erebuni xarabalıqları (e.ə. VIII əsr).***

İrəvan ərazisində e.ə. VIII əsrdə Urartu hökmdarları tərəfindən inşa edildiyi güman edilən Erebuni qalası müasir tarixşünaslıqda çox mübahisə doğuran abidələrdən biri olduğu məlumdur. Ermənilər bu qalanın adını İrəvan şəhərinin adı ilə bağlamağa çalışır, öz mövcudluqlarını bu qala ilə bağlamağa çalışırlar. Lakin faktlar sübut edir ki, təkcə İrəvan şəhərinin deyil, Urartu dövlətinin, onun qalalarının ermənilərlə heç bir əlaqəsi yoxdur.

## ❖ KOLAGİRƏN VƏ YA TEYŞEBA QALASI

Qarbi Azərbaycanın qədim möhtəşəm abidələrindən biri də Göyçə mahalının Qaranlıq (Martuni) rayonunun Kolagirən (Tsovinar) kəndi yaxınlığında yerşəşən e. ə. VIII əsrin II yarısına aid qədim türk qalasıdır. Onun əsasının qo-yulması

Urartu dövlətinin regiona gəlişi zamanına təsadüf edir. Qala Göyçə gölünün sahilində təpə üstündə



qərarlaşmışdır. Bu qala həmin bölgədə Urartu çarı Sardur oğlu Rusanın tikdirdiyi iki qədim qaladan (digəri Göyçə mahalının Kəvər rayonu ərazisindədir) biridir.

Teyşeba allahının şərəfinə tikilmiş qalanın iri qaya daşlarından hörülmüş divar və künc qüllələrin qalıqları qalmaqdadır. Qalanın xarabalıqlarından çoxsaylı gil qablar, bəzək əşyaları tapılmışdır.

Qeyd edək ki, Kolagirən kəndində tarix boyu Türk-Oğuz tayfaları yaşamış, ermənilər buraya yalnız 1830-cu ildən sonra köçürülmüşlər.

## ❖ SƏRDARABAD QALASI

Sərdarabad mahalının Sərdarabad (Oktemberyan) rayonu ərazisində bu türk-müsəlman qalası İrəvan sərdarı tərəfindən tikildiyi üçün sərdarın şərəfinə Sərdarabad qalası adlanmışdır.

Türkiyə sərhədində yerləşən Sərdarabad qalası İrəvan şəhərinin qapısı sayıldığından həmişə xarici hücumların əsas zərbəsini öz üzərinə götürmüş, qanlı döyüşlərin meydanına çevrilmişdir.

XIX əsrin əvvəllərində rus generallarının hücumu zamanı da qala uğrunda amansız döyüşlər getmiş, bu döyüşlər zamanı qala xeyli dağıntılara məruz qalmışdır.

Sovet hakimiyyəti illərində - 1930-cu il sentyabrın 9-da Sərdarabad mahalı ərazisində mərkəzi Sərdarabad qalası olmaqla Sərdarabad rayonu yaradılmış, 1935-ci ildə Sərdarabad rayonunun adı dəyişdirilərək Oktemberyan rayonu, Sərdarabad qalasının adı isə Oktemberyan kəndi qoyulmuşdur.




## ❖ GƏRNİ QALASI

Qərbi Azərbaycanın qədim müdafiə xarakterli abidələrindən biri də Gərnibasar mahalının Gög (Ağmanqan) dağın ətəyində, Ellər (indiki Abovyan) rayonunun Baş Gərni kəndi ərazisində qədim türk qalası olan Gərni qalasıdır.

Bəzi mənbələrə əsasən onun e. ə. III-II əsrlərdə inşa olunduğu ehtimal edilir. Uzunluğu 314 m olan qala divarları bürclərlə əhatə olunmuşdu. Rus işğalına qədər qala öz möhtəşəmliyini qoruyub saxlamışdı. 1827-ci ildə II Rusiya-İran müharibəsi zamanı qala dağıdılmışdır. Hazırda onun xarabalıqlaarı qalmaqdadır. Elə həmin işğaldan sonra ermənilər bu yerlərə köçürülməyə başlamışdır.



***Qədim Qarqar türklərinə məxsus Gərni qalasının qalıqları (e.ə. III-II əsrlər).***

## ❖ URUD QALASI



Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Urud (Vorotan) kəndi kənarında yerləşən qala elə kəndin adı ilə adlanır. Hündür sıldırım qayanın zirvəsində yerləşn qala üç tərəfdən

Bazarçay çayının dərin dərəsi, bir tərəfdən isə divarla əhatələnmişdi. Deyilənə görə, qaladan çaya gizli yol olmuşdur. Çayın ətrafında isə mövcud olmuş kəndin qalıqları qamaqdadır. Qalanın adına mənbələrdə V əsrin ortalarına aid məlumatlarda rast gəlinir.

## ❖ OXÇU QALASI





Zəngəzur mahalının Qafan rayonunun, Oxçu və Gığı çayları-nın qovuşuğunda, Novruzyurd adlı hündür təpəliyin üstündə erməni mənbələrində "Baqaberd" adı ilə təqdim olunan Oxçu qalası yerləşir. VI-VII əsrlərdə inşa olunmuş bu qala Zəngəzurdakı beş Babək qala-sından biri hesab edilir. Xustub və Gəzbel dağ zirvələrini bir-birindən ayıran əhəmiyyətli mövqedə yerləşən qalanın iki tərəfi sıldırım dərə, digər iki tərəfi isə ikiqat divarla əhatələnmişdir. Onun çoxsaylı bürclərindən 17–si dövrümüzə qədər qalmışdır.

Oxçu qalası ilə üzbəüz Oxçu çayının digər sahilində başqa bir qalanın qalıqları da durmaqdadır ki, bunun da keşikçi qalası olduğu güman edilir.

Uzun illər Siyuni əyalətinin mərkəzi olan Oxçu qalası XII əsrdə müharibə zamanı dağıdılmış, sonralar yenidən bərpa olunmuşdur.

## ❖ AXTALA QALASI



Allahverdi (Tumanyan) rayonu ərazisində, Axtala dəmiryol stansiyasından 2,5-3 km aralıda qədim türk qalası və məbədi mövcud olmuşdur. X əsrdə türksoylu Baqratilər sülaləsinin mühüm məntəqələrindən olan Axtala qalası öz əhəmiyyətini həmişə saxlamışdır.

Qədimdən Türk-Oğuz boylarının ana yurdu olan Axtala kəndində XX əsrə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. İlk ermənilər isə kəndə 1920- ci ildən sonra köçüb gəlmişlər.

## ❖ MIĞRI QALASI





*Mığrı qalası.*

Zəngəzur mahalının Mığrı rayonunun Mığrı şəhərinin Böyük məhəllə hissəsinin Şimalında qədim Mığrı qalası yerləşir. Dağ silsiləsi boyunca Şəhəri dövrələyən qalanın dörd 6 bürcü vardır. Qala haqqında ilk məlumat 1083-cü ilə aiddir. XVIII əsrdə isə qala yenidən qurulmuşdur.

Yonulmamış qranit daşlardan gil palçıqla hörülmüş qalanın divarları sıldırım qayalı dağlarla əhatələnmişdir.

Qalanın divarları boyunca atəş açmaq üçün çoxsaylı mazqalların olması onun müdafiə- istehkam xarakterli tikili olduğunu sübut edir.

## ❖ QIPÇAQ QALASI

Şörəyel mahalının Artik rayonunun Qıpçaq (Ariç) kəndində qədim türk qalası olan Qıpçaq qalası yerləşir. Oradakı məşhur Qıpçaq düzündə Qıpçaq kəndi və Qıpçaq məbədi də qərar tutmuşdur.

Qala ərazisindəki qədim məbədin 1201-ci ildə tikildiyini nəzərə alsaq, ehtimal etmək olar ki, qala ən azı XII əsrdə, bəlkə daha əvvəllər inşa edilmişdir. Təəssüf ki, kəndin və məbədin ətrafında qalanın ancaq qalıqları qalmaqdadır. Adından da göründüyü kimi, qala Qərbi Azərbaycan ərazisində ilkin orta əsrlərdə məskunlaşmış Qıpçaq türklərinə məxsus olmuşdur.





*Qıpçaq qalası.*

## ❖ SALSAL QALASI



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Ələyəz çayı ilə Erdəpin çayı arasında, Ələyəz və Erdəpin kəndlərinin əhatəsində olan Qabaqtəpə və ya Sal dağının sıldırım qayaları üzərində qədim türk qalası olan Salsal qalasının qalıqları mövcuddur. Tikilmə tarixi dəqiq deyildir, Lakin onun ölçülərinin böyüklüyü onun tarixi əhəmiyyətindən və əzəmətindən xəbər verir. Qala iki giriş qapısına və Həsənkənd istiqamətdə divarın özülündən gizli bir çıxış qapısına malik olmuşdur. Qalanın daxili sahəsi təqribən 20 hektara yaxındır.

## ❖ SİVƏNG QALASI



***Göyçə gölündəki adada qədim türk qalası və məbədi öz unikallığı ilə seçilir.***

Hələ e. ə. 782-ci ildə Urartu çarı I Argiştinin Cənubi Qafqaza yürüşü ilə bağlı mənbələrdə Sivəng qalasından və məbədindən bəhs olunur. IV əsrdə Maarifçi Qriqori qədim bütpərəstlik məbədi yerində yenisini tikdirmiş, sonra o dağılmış və 874-cü ildə onun yerində təzə xristian məbəd tikilmişdi. Bu qala və onun içərisindəki alban məbədi də forma və məzmun cəhətdən dəyişdirilməsi də son yüzilliklərdə həyata keçirilmişdir.

## ❖ AMBERD QALA-QƏSRŞ VƏ MƏBƏDİ

Əştərək rayonu ərazisində, Alagöz dağının cənub ətəyində, Arxaşan çayı kənarında Amberd qala-qəsr və məbədi yerləşir.

Qala VII əsrdən mövcud olmuş, XI əsrdə yenidən qurulmuşdur. XIII əsrdə qəsrdə güclü yanğın olmuşdur.

Amberd məbədinin isə mənbələrin məlumatına görə XI əsrdə tikildiyi güman edilir.



***Amberd türk qalası***



***Amberd türk məbədi***

## ❖ BECNİ QALASI VƏ MƏBƏDİ



Dərəçiçək mahalının Axta (Razdan) rayonunun Becni şəhərinin kənarında, Zəngi çayının sıldırım qayalıqları sahilində türklərə məxsus olmuş Becni qalası və məbədi yerləşmiş, qalıqları günümüzə qədər gəlib çatmışdır.

Becni qalasının X-XI əsrlərdə tikildiyi hesab edilir. O daş divarlarla əhatələnmiş güclü müdafiəyə malik olmuşdur. Qalada XI əsrdə inşa edildiyi ehtimal olunan kilsə elə qalanın adı ilə Becni kilsəsi adlanır. Bəzi mənbələr bu abidələrin daha əvvəl – VII əsrdə tikildiyini iddia edirlər.

## ❖ ŞƏKİ QALASI



Şəki qalası – Qərbi Azərbaycan ərazisində qaladır. Bu qala Qarakilsə rayonu (Sisiyan) ərazisində, Bazarçayın sahilində, Darvaztəpə dağının zirvəsində yerləşir. Şəki qalası Azərbaycanda eramızdan əvvəl VII-V əsrlərdə məskunlaşan Saka (Şaka, Saklar) adlı türk tayfasının adını qoruyub saxlayıb və qalanın da əsasının saklar tərəfindən qoyulması faktını da sübut edir. Son tədqiqatlar göstərmişdir ki, vaxtilə həmin ərazidə mərkəzi Şəki qalası olan vilayət mövcud olmuşdur. Şəki qalası Qafqaz albanlarından olan knyaz Səhl ibn Sumbatın əsas iqamətgahı kimi, Babək Xürrəmidinin də süqutunun şahididir. Şəki qalası həm də Qızıl Arslanla Nizami Gəncəvinin görüşdüyü yer kimi tanınır.

# QƏRBİ AZƏRBAYCANIN MÜSƏLMAN ABİDƏLƏRİ

Cənubi Qafqaz ən qədim zamanlardan türk xalqlarının yaşadığı ərazi olmuşdur. Tarixin müxtəlif mərhələlərindən keçən bu əhalinin din tarixində 3 böyük mərhələni ayırmaq lazımdır.

I mərhələ bütpərəstlik dövrünü əhatə edir. Azərbaycan əhalisinin böyük əksəriyyətinin atəşpərəstlik dininə iman gətirdiyi hesab edilir.

II mərhələ xristianlıq dövrünü əhatə etməklə bizim eranın ilk əsrlərindən , xüsusilə IV əsrin əvvəllərindən başlayır.

III dövr İslamla bağlı olub günümüzə qədər davam edir.

Bu mərhələnin hər biri Azərbaycan xalqının tarixində, adət ənənəsində, düşüncə tərzində, mənəviyyatında və mədəniyyətində dərin iz qoymuşdur. İslam mərhələsindən danışarkən qeyd etmək lazımdır ki, o müasir Azərbaycanın mənəvi həyatının əsasını təşkil edir. Azərbaycanda mənəvi durum islamın əsasları üzərində dayansa da Azərbaycan islamaqədərki dinlərin köklü xüsusiyyətlərini qoruyub saxlayır.

Azərbaycan islam ölkəsi olaraq ərazilərində onun maddi və mənəvi irsini qoruyub saxlamışdır. Lakin itirilmiş ərazilərdə bu irs dağıntılara, saxtalaşdırmalara, təhqirlərə məruz qalmışdır. Xüsusən ermənilərin əlinə keçmiş ərazilərdə islam mədəni irsinə qarşı amansızlıq nümayiş etdirilmiş, onun çoxu məhv edilərək yer üzündən silinmişdir. Ən pisi də odur ki, ermənilər bu düşmənçilik əməllərini təkcə Azərbaycan ərazisində yaradılmış Ermənistan ərazisində deyil, Azərbaycan ərazisində yaşamış olduqları hər yerdə, o cümlədən Qarabağda da etmişlər.

Qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycanın tarixi və mədəniyyət abidələrinə münasibətdə apardığı dağıdıcılıq və saxtalaşdırma işi mərhələlərlə aparılmışdır. Onların sifarişçilərinin tapşırıqlarına uyğun olaraq məqsədyönlü şəkildə fəaliyyət göstərmişlər.

Ermənilərin Azərbaycan tarixi və mədəni irsinin məhvinə və saxtalaşdırılmasına yönəlmiş fəaliyyətinin ən fəal dövrü Sovet hakimiyyəti illərinə təsadüf edir. Proletkultçuluq və ateist təbliğatından ən çox zərər çəkən də Azərbaycan olmuşdur. Ermənilər mövcud ideoloji durumdan istifadə edərək azərbaycanlı əhaliyə qarşı repressiyalarda, tarixi izlərimizin silinməsində və saxtalaşdırılmasında xüsusi canfəşanlıq göstərmişlər.

Tarixi Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində çoxlu sayda tarixi-memarlıq abidələri, karvansaralar, imarətlər, məscidlər,

qəbiristanlıqlar, məqbərələr, qəbirüstü abidələr və s. mövcud olmuşdur. Ümumiyyətlə həmin ərazilərdə Azərbaycan əhalisi zəngin mədəniyyətə malik olmuşdur. Memarlıq abidələri ilə yanaşı hər yerin, hər bir dağ, dərə, düzənlik, çay, göl, bulaq, yaşayış məskəni, öz adları ilə xalqımıza məxsusluğuna şahidlik edir. İrəvan şəhərindəki xan sarayı, qalalar, məscidlər, karvansaralar haqqında səyyahların, salnaməçilərin, tarixçilərin, arxeoloqların, rəssamların əsərlərində geniş məlumatlar verilmişdir. Bütün bunlara baxmayaraq biz bu gün bu həqiqətləri yenidən sübut etməli oluruq.

İndiki Ermənistandakı Azərbaycana məxsus tarixi və memarlıq abidələrinin xeyli hissəsi dini abidələrdir. Onlara qarşı ermənilər daha amansız olmuş, onların izlərini yer üzündən silməyə çalışmışdırlar. Hazırda vaxtilə sayı yüzlərlə ölçülən məscidləri, ziyarətgahları, müsəlman qəbiristanlıqlarını, türbələri barmaqla saymaq olar. Onların əksəriyyəti haqqında məlumat yalnız tarixi mənbələrdən, insanların yaddaşından almaq mümkündür. Bütün bu vandalizmin bir məqsədi olmuşdur ki, o da Azərbaycanın vətən haqqını danmaq, onun izlərini itirərək özlərinin əfsanələri üçün zəmin yaratmaq olmuşdur.

Hər dəfə azərbaycanlılar yaşadıqları ərazilərdən qovulandan və ya deportasiya ediləndən sonra onların izlərini silmək üçün yaşayış məntəqələrinin adı dəyişdirilmiş, dini abidələr məhv edilmiş, qalan memarlıq abidələri dəyişdirilərək erməni mədəniyyətinin nümunəsi kimi təqdim edilmişdir. Sonuncu azərbaycanlılar 1988-ci ildə Ermənistandan qovulandan sonra bu əməllər kütləvi hal almışdır. Mütəxəssislərin təxmini hesablamalarına görə 3500-dən çox tarixi və mədəniyyət abidələri, 500-dən artıq qəbiristanlıq, 400-ə yaxın məscid məhv edilmişdir.

Təkcə İrəvan şəhəri XIX əsrin 30-cu illərindən sonra – ermənilərin Cənubi Qafqaza köçürülməsi zamanı çoxsaylı tarixi memarlıq abidələrinə malik idi. Lakin artıq XIX əsrin II yarısında onun müdafiə qurğuları Rusiya hakimiyyət orqanlarının qərarı ilə ləğv edilmişdir. Ermənilərin sayı tədricən artırılmışdır. Bu da şəhərin simasında da təsirini göstərmişdir..

İrəvan hakimlərinin iqamətgahı İrəvan qalasının içərisində yerləşirdi.

İrəvan şəhəri yarandığı vaxtdan bu regionun siyasi, iqtisadi və mədəni mərkəzi olmuşdur. Buna uyğun olaraq orada qalalar, saray və iqamətgahlar, ictimai obyektlər və fərdi yaşayış evləri tikilmişdir. Onların diqqət çəkən nümunələrindən biri İrəvan qalası olmuşdur. XVI əsrin 70-ci illərində qalanın içərisində yeni xah sarayı inşa olunmuşdu. Bu saray müxtəlif vaxtlarda fərqli səbəblərdən dağıntılara məruz qalsa da, hər

dəfə bərpa edilmiş, möhkəmləndirilmişdi. Sonuncu dəfə bu saray XVIII əsrin II yarısında İrəvan xanlığı zamanında Hüseynqulu xan tərəfindən yenidən tikilmişdir. 1791-ci ildə bu saray kompleksinə "Güzgülü zal" və "Yay iqamətgahı" əlavə olunmuşdur. İrəvan xan sarayı və ya Sərdar sarayı xanlıqlar dövründə mövcud olan ən mükəmməl saray komplekslərindən biri idi. Lakin bu saray 1918-ci ildən sonra ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Göründüyü kimi ermənilərin xan sarayını belə vəhşicəsinə dağıtmasının səbəbi onu saxtalaşdıraraq erməni abidəsi kimi təqdim etməyin mümkün olmaması idi.

İrəvan şəhərində bir müsəlman şəhəri kimi məscidlər inşa edilmişdi. Hələ XVI əsrin əvvəllərində Şah İsmayılın sərkərdəsi Rəvanqulu xan İrəvan qalasını tikdirərkən orada məscid inşa etdirmişdi. Şah İsmayıl məscidi adlandırılan həmin məscid sonradan zəlzələ nəticəsində dağılmışdır.

XX əsrdə İrəvan şəhərində çoxsaylı məscidlərin olması məlumdur. Onlardan daha məşhurları şəhərin müxtəlif yerlərində fəaliyyət göstərən Göy məscid, Sərdar məscidi və ya Şah Abbas məscidi, Dəmirbulaq məscidi, Rəcəb paşa məscidi, Şəhər məscidi və ya Zalxana məsçidi, Təpəbaşı məscididir.

1833-cü ildə fransız geoloqu və arxeoloqu, naturaçı Fredrik Dyubua de Monpere Qafqaza və Krıma etdiyi səyahətinin nəticəsi olaraq 1839-1843-cü illərdə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" 6 cildlik əsərində İrəvan qalasını və Göy məscidi ətraflı təsvir etmişdir. Onun Sərdar məscidinin əsas girişi tərəfdən çəkdiyi rəsm və Göy məscidin rəsmi hər iki məscidin möhtəşəmliyini və memarlıq nöqteyi-nəzərindən mükəmməl sənət əsəri olduqlarını əyani nümayiş etdirir.

İrəvanda olmuş səyyahların əsərlərində İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən "Sərdar", "Şah Abbas","Abbas Mirzə" məscidləri haqqında məlumat verilmişdir. Alman səyyahı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və Qalada olan iki məsciddən birinin (yəni Rəcəb paşa məscidinin) rus-yunan kilsəsinə, digərinin – Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir. XX əsrin əvvəllərində Sərdar məscidində Türkiyədən gələn erməni qaçqınları məskunlaşdırılmışdı. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikilmişdir.

Müxtəlif mənbələrdə İrəvan qalasında olmuş məscidlərin adı çəkilir ki, onların xeyli hissəsi haqqında müfəssəl məlumat yoxdur. Bu mənbələrdə, xüsusən İrəvan şəhərini təsvir edən bütün səyyahların əsərlərində həm

ölçülərinin, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi Göy məscidin adı birinci çəkilir. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscid İrəvan xanı Hüseynəli xanın hakimiyyəti dövründə - XVIII əsrin II yarısında inşa edilmişdir.

1995-ci ildə İranla Ermənistan arasında imzalanan müqaviləyə əsasən İran hökuməti Göy məscidin yenidən qurulması xərclərini öz üzərinə götürdü. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" kimi təqdim edirlər.

İrəvanın köhnə şəhər adlanan hissəsindəki məscidlərdən biri şəhər və yaxud Zal xan məscidi adlanırdı. Şəhər məscidi həcmcə Göy məsciddən nisbətən kiçik olsa da, çox gözəl olmuşdur.

Təpəbaşı yaşayış massivində yerləşən məscidinin minarəsi 1960-cı illərdə uçmuşdur. Məlumatlara görə, həmin məscidi İrəvan şəhər idarəsinin üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Hazırda dağıdılmış vəziyyətdə olan Abbasqulu xanın evini hələ də ermənilər "Xanın evi" adlandırırlar.

İrəvan şəhərinin Dəmirbulaq massivində XX əsrin əvvəlində üç məscid qeydə alınmışdır. Həmin məscidlər bunlardır: Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidi. Dəmirbulaq məscidi Gedər çayının üzərindəki körpünün yaxınlığında yerləşdiyi üçün onu Körpüqulağı məscidi də adlandırmışlar. Bunlardan ikisi – Hacı Novruzəli bəy və Körpüqulağı məscidləri 1930-cu illərdə İrəvan şəhərinin baş planının qurbanı olmuşlar. İrəvan şəhərində 1988-ci ilədək fəaliyyət göstərən yeganə məscid Hacı Cəfər bəyin tikdirdiyi Çətirli məscid və yaxud yerləşdiyi ərazinin adına uyğun olaraq adlandırılan Dəmirbulaq məscidi olmuşdur.

1988-ci ilə qədər İrəvanda məscid kimi fəaliyyət göstərən məbəd Çətirli məsçidi olmuşdur. XX əsrin əvvəllərində tikildiyi məlum olan bu məscid də 1988-ci ildə Qarabağ münaqişəsi başlayandan sonra dağıdılmışdır.

İrəvan şəhərində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrindən biri də Tumanyan küçəsində yerləşən mədrəsədir. Həmin yerdə mövcud olmuş məscid sökülsə də, onun mədrəsəsindən bu gün də yaşayış evi kimi istifadə edilir.

İrəvan şəhərində azərbaycanlılara məxsus salamat qalmış tarixi-memarlıq abidələrindən biri Cəfərabad kəndindəki Əmir Səəd məqbərəsidir. Ermənilər Cəfərabad kəndindəki orta əsrlərə aid bu məqbərəni "Türkmən məqbərəsi" adlandırırlar.

## ❖ SƏRDAR MƏSCİDİ



İrəvan qalasındakı Sərdar (Abbas Mirzə) məscidi. Rəssam Dübua de Monpere. 1843.

Qala məscidi və ya köhnə məscid İrəvandakı məscidlərin ən qədimi idi. O, Şah İsmayılın tapşırığı ilə onun vəziri Rəvanqulu xanın İrəvan qalasının tikdirdiyi dövrə təsadüf edirdi. 1510-cu ildə şah İsmayılın əmri ilə qalanın içərisində tikilmiş bu məscid 1589-cu ildə osmanlılar tərəfindən təzədən bərpa edilmişdir.

İrəvan qalası içərisində Sərdar sarayı yaxınlığında yerləşdiyi üçün onu Sərdar məscidi də adlandırırdılar.

1918-ci ildə ermənilər şəhərin müsəlman əhalisini bu məscidin içərisinə dolduraraq məscidlə bir yerdə yandırmışlar.

## ❖ GÖY MƏSCİD



1760-1764-cü illərdə İrəvan sərdarı Hüseynəli xan Qacar (1762-1783) tərəfindən tikilmiş, onun adı ilə də Hüseynəli xan məscidi adlanmışdır Göy məscid İrəvan şəhərində bu günə qədər qalmış yeganə məsciddir.

Eni 66 m, uzunluğu 97.2 m olan Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü və İrəvan şəhərinin mərkəzi Came məscidi idi, digər məscidlərə din xadimləri buradan göndərilirdi.

Məscid kompleksi ibadət və din xadimləri üçün yaşayış otaqlarından, qış və yay salonlarından, mədrəsədən və s. tikililərdən ibarət idi. Məscidin 4 minarəsi (3-ü dağıdılmış, yalnız 1-i qalmışdır), çarhovuzlu-fəvvarəli geniş həyəti, zəngin kitabxanası olmuşdur.

Məscid XX əsrdə ermənilər tərəfindən iki dəfə - 1918-ci ildə və 1955-ci ilin martında yandırılmışdır.

Son zamanlar məscidin binası tarix muzeyinə çevrilmişdi. Hazırda ermənilər bu məscidi "Fars məscidi" adı ilə dünyaya təqdim edirlər.

## ❖ ŞAH ABBAS MƏSCİDİ



1604-cü ildə 1-ci Şah Abbas İrəvan qalasını Osmanlılardan azad etdikdən sonra Sərdar sarayının şərqində inşa edilmişdir. Məscid 1606-cı ildə Şah Abbas tərəfindən tikdirildiyindən Abbas məscidi adlanır. Məscidin nəzdində mədrəsə, kitabxana, karvansara və onları əhatə edən böyük həyət, həyətdə hovuz olmuşdur. Məscidin memarı o zamanın məşhur memarı Şeyx Bahəddin idi.

1918-1920-ci illərdə məscid erməni millətçiləri tərəfindən dağıdılmışdır.

Uzun müddət yararsız halda saxlanan məscid binasını ermənilər XX əsrin 40-cı illərində bütünlüklə məhv etmişlər.

## ❖ DƏMİRBULAQ MƏSCİDİ



*Dəmirbulaq məscidi*

İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində Dəmirbulaq məscidi yerləşmişdir. Bu məscidin binasının üstündə düzəldilmiş günlüyə görə isə Günlüklü məscidi də adlanmışdır. Məscid Hacı Müzəffər ağa adlı şəxs tərəfindən XVII-XVIII əsrlərdə tikilmişdir.

1988-ci ilə qədər fəaliyyət göstərən və şəhərin dindar müsəlmanlarına xidmət göstərən məscid elə həmin ilin fevralında erməni millətçiləri tərəfindən hücuma məruz qalmış və talan edilərək yandırılmışdır.

## ❖ HACI NOVRUZƏLİ MƏSCİDİ



İrəvan şəhərində XVIII əsrin 2-ci yarısında Qara Seyid adlı şəxs tərəfindən tikilmişdir Hacı Novruzəli məscidi şəhərin Hacı Novruzəli məhəlləsində yerləşdiyindən Hacı Novruzəli məscidi adlanmışdır. Təkminarəli bu məscid XX əsrin əvvəllərində erməni millətçiləri tərəfindən yandırılaraq məhv edilmişdir.

## ❖ ABBAS MİRZƏ (XAN) MƏSCİDİ

Abbas Mirzə Məscidi XVIII əsrdə Abbas Mirzə Qovanlı – Qacar tərəfindən İrəvan qalasında inşa etdirilmişdir. 1827- ci ildə ruslar tərəfindən dağıdılıb. 2008-ci ildə isə tamamilə sökülmüşdür.





*Abbas Mirzə məscidi və ya Xan məscidi*
*(bugünkü xarabalığı)*

## ❖ TƏPƏBAŞI MƏSCİDİ



İrəvan şəhərinin Təpəbaşı yaşayış massivində yerləşən məscidinin minarəsi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı 1,5 metr olan məscidin içərisindəki imamın otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin həyətində və ətrafında ermənilər gecəqondular inşa etmişlər. Bəzi məlumatlara görə, həmin məscidi İrəvan şəhər idarəsinin üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Hazırda dağıdılmış vəziyyətdə olan Abbasqulu xanın evini hələ də ermənilər "Xanın evi" adlandırırlar.

## ❖ ZAL XAN MƏSCİDİ



İrəvanın köhnə şəhər adlanan hissəsindəki məscidlərdən biri şəhər və yaxud Zal xan məscidi adlanırdı. Şəhər məscidi həcmcə Göy məsciddən nisbətən kiçik olsa da, çox gözəl olmuşdur. Tədqiqatçıların verdikləri məlumata görə, Zal xan, yaxud şəhər məscidi İrəvan şəhərinin mər-kəzindəki hazırda Respublika meydanı adlanan ərazidə olmuşdur. 1928-ci ildə Şəhər məscidinin böyük zalı sökülərək onun yerində "Yerevan" hoteli inşa edilmişdir.

## ❖ XUDABƏNDƏ MƏSCİDİ

Xudabəndə məscidi Səfəvi hökmdarı Məhəmməd şah Xudabəndə tərəfindən tikilmiş məscid olmuşdur. Uzunluğu 9 metr, eni 6 metr, hündürlüyü isə 12 metr idi. Kiçik mehrabı olan məscid qırmızı bişmiş kərpicdən tikilmişdi. 1685-ci ildə Səfəvi hökmdarı Şah Süleyman tərəfindən inşa etdirilən məscidin giriş qapısı üzərində bir kitabə də qoyulmuşdu.

## ❖ RƏCƏB PAŞA MƏSCİDİ



1725-ci ildə Rəcəb Paşa tərəfindən İrəvan qalasında inşa edilmiş məscid İrəvan qalasının 1827-ci il oktyabrın 1-də rus qoşunları tərəfindən işğalından bir gün sonra Rəcəb Paşa məscidinin günbəzindəki ay-ulduzu çıxarıb, yerində xaç və kilsə zəngi asaraq onu rus pravoslav kilsəsinə çevirmişdilər. Daha sonra onun xarici quruluşunda da dəyişiklik edilmiş, fasadına silindrik sütunlar əlavə edilmiş, damına örtük vurulmuş, xristian məbədi formasına salınmışdı. Rəssam Frans Rubonun İrəvan qalasının alınmasına həsr etdiyi rəsmdə öndə Rəcəb paşa məscidi və onun minarəsi, arxa planda isə İrəvan xan sarayının yaxınlığında Sərdar məscidinin təsviri verilmişdir. 1930-cu illərdə rus pravoslav kilsəsi də sökülərək məhv edilmişdir.

## ❖ BUĞAKAR PİRİ

Zəngəzur mahalının Meğri rayonunun Buğakar kəndi ərazisində ziyarətgah.

Buğakar kəndi öz adını IX əsr ərəb sərkərdəsi Buğa əl-Kəbirin, adından almış, ziyarətgah isə kəndin adı ilə - Buğakar ziyarətgahı kimi tanınmışdır. Sultan Seyid Əhməd məqbərəsi kimi də tanınan bu ziyarətgah, əslində, ərəb sərkərdəsi Əhməd ibn əl-Xəlil ibn Hişamın məzarı, məqbərə də onun məqbərəsidir.

Kənddə həmişə azərbaycanlılar yaşamışlar.

1930-cu illərdə Buğakar kəndi ləğv edilmiş, əhalisi qonşu azərbaycanlı kəndlərinə köçürülmüşdür. Buna baxmayaraq Buğakar piri ətraf kəndlərin azərbaycanlı əhalisi üçün ziyarətgah olaraq qalmışdır.



***Buğakar pirinin ümumi görünüşü.***

## ❖ CADIRĞAN PİRİ





***Cadırğan piri***

Cadırğan piri Loru mahalının Barana (Noyemberyan) rayonunun Ləmbəli (Baqrataşen) kəndi ərazisində, böyük Cadırğan düzünün cənubunda yerləşir.

Bölgədə məşhur olan bu pirə ətraf kəndlərin də müsəlman əhalisi ziyarətə gələrmişlər.

Qədimdən insanların inanc yeri olan bu pirin tarixi haqqında dəqiq məlumat yoxdur, çünki burada heç bir tədqiqat aparılmayıb. Ehtimala görə isə bu yerdə vaxtilə hansısa bir müqəddəs insanın məzarı olmuş və bu məzar sonralar ziyarətgaha çevrilmişdir.

Pirin yerləşdiyi Ləmbəli kəndində qədimdən azərbaycanlılar yaşamış, bura ilk ermənilər 1949-cu ildə kəndin azərbaycanlı əhalisi sürgün olunduqdan sonra köçürülmüşlər.

## ❖ KƏKİLLİ PİR

Zəngəzur mahalının Qafan rayonunun Yuxarı Girətağ kəndi ərazisində təpə başındakı üç böyük palıd ağacı qədimdən yerli sakinlərin inam yerinə çevrilmişdir. Bu yerlərdəki meşəliklər ildən-ilə qırılıb, tükənsə də, Kəkilli pirin palıdları qorunmuşdur. Bu pirin qüdrəti haqqında əhali arasında xeyli əfsanələr və rəvayətlər vardır.

Kəndin sakinləri bura dilək diləməyə gələr, qurbanlar kəsər, palıd ağaclarının koğuşlarında çıraq yandırardılar. Pirin ərazisində Zəngilan bölgəsinin hörmətli din xadimlərindən sayılan Seyid Mir Əhməd ağanın və Mir Əli ağanın məzarları vardır. Mir Əhməd ağanın məzarı üstündə sərdabə tikilmişdir.



***Kəkilli pirdə Seyid Əhmədin məqbərəsi (XX əsr).***

## ❖ AĞADƏDƏ OCAĞI



1950-1980-ci illərdə Zəngibasar mahalının ən mötəbər ziyarətgahı olan bu ocaq Uluxanlı, Həbilkənd, Seyidkənd, Sarvanlar kəndlərinin əhatəsində, Qulucan kəndinin yanında, Qarasu çayının kənarında yerləşirdi.

Oraya müsəlmanlarla yanaşı, xristianlar da pənah gətirirdilər.

Ətraf kəndlərdən də, hətta İrəvan şəhərindən imkanı olan adamlar öz əzizlərini bu ocağın ətrafında yaranmış qəbiristanlıqda dəfn edirdilər. Qərbi Azərbaycan türklərinin 1988-ci il soyqırımından sonra bu müqəddəs ocaq da ermənilər tərəfindən dağıdılmışdır.

## ❖ ƏRGƏZ (ƏRQAZAN) PİRİ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Ərgəz kəndi yaxınlığında alban-türk məbədi qədim mənbələrdə Ərgəz və ya Ərkazan piri kimi qeydə alınmışdır. Oğuz ərlərinə məxsus bu pirin yaxınlığındakı kiçik daş kilsənin XIII əsrdə tikildiyini kilsədə olan kitabələrdə öz əksini tapmışdır..

1950-60-cı illərdə isə ermənilər bu müqəddəs ocağı "bərpa edərək" görkəmini dəyişmiş, pirə və kilsəyə çoxlu erməni işarə və əlamətləri əlavə edərək onu erməniləşdirməyə cəhd etmişlər.





***Oğuz türklərinin yadigarı olan Ərgəz (Ərqazan) piri (XIII əsr).***

# ❖ ƏXİ TƏVƏKKÜL ZAVİYƏSİ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Ələyəz kəndinin yaxınlığında türk-müsəlman məbədi

Zaviyənin girəcəyindən götürülmüş, üzərində 3 varlığın - yerin, ayın, günəşin rəmzi olan 3 dairə, hər dairədə 12 imamın rəmzi kimi 12 xətt və Dərələyəz mahalında yaşayan türk tayfalarının sayını bildirən səkkizguşəli ulduzlar həkk olunmuş hündürlüyü 2,5 m, eni 1,4 m. olan daş lövhəni ermənilər sonradan xaçlaşdıraraq "ermənniləşdirməyə" çalışmışlar. Daş plitə üzərində ərəb dilində yazılar vardır.

Aşağıdakı yazı onun Əxi Təvəkkülün qəbirüstü abidəsi olduğunu təsdiq edir: "Bu məzar mərhum və uca Şəhid, qadir Allahın mərhəmətinə ehtiyacı olan - Allah onun günahlarından keçsin - Əxi Təvəkkülündür. 950-ci ilin məhərrəm ayı (miladi may 1543-cü il)".

XII-XIII əsrlərdən mövcud olan zaviyənin süqutu XVI əsrdə Sultan Səlimin Azərbaycana yürüşü ilə bağlı olmuşdur. Zaviyə tam dağıdılıb yerlə-yeksan edilmiş, onun Şeyxi - Əxi Təvəkkül qətlə yetirilmiş, təxminən 30 il sonra isə onun məzarı üstündə daş abidə ucaldılmışdır.



***Əxi Təvəkkül zaviyəsi (XII-XIII əsrlər).***





***Əxi Təvəkkül zaviyəsindən götürülmüş daş lövhə.***

## ❖ ÖKSÜZ OCAĞI

Ağbaba mahalının Amasiya rayonu ərazisində, rayon mərkəzi olan Amasiya şəhərindən şimalda yerləşən Öksüz ( Darik) kəndinin kənarında müsəlman ocağı yerləşir. Bu ocaq 3-4 metr hündürlüyündə qranit qayadan ibarətdir. Ağbaba bölgəsində adamların ən çox ziyarət etdiyi, kömək dilədiyi ocaqlardandır.

Rəvayətə görə, bu pir Qaraqoyunlu Qara Məhəmmədin tanınmış sərkərdələrindən biri olmuş Öksüzün qəbridir. Deyilənə görə, Öksüzgil yeddi qardaş olmuşlar. Onlardan birinin də adı İbiş olmuşdur. Abidənin yerləşdiyi Ağbaba mahalında tarix boyu azərbaycanlıların yaşamış, ermənilər buraya 1988-ildən sonra gəlmişlər.



*Öksüz ocağı.*

## ❖ PİR HÜSEYN TÜRBƏSİ

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən, İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndində qırmızı tuf daşdan inşa edilmiş səkkiztilli türbə Qaraqoyunlu dövləti ilə bağlıdır. .

Qaraqoyunlu əmirlərinin sərdabəsi üstündə ucaldılan türbənin hündürlüyü günbəzsiz 12 m olmuşdur. Türbəni yuxarıdan kəmərvarı əhatə edən 22 m uzunluğunda ərəbdilli kitabədə Çuxur Səəd vilayətinin Saatlu (Sakadlı) tayfasından olan əmirləri Pir Hüseyn və atası Əmir Səədin adları çəkilmişdir. Kitabədə yazılıb ki, bu günbəzli müqəddəs sərdabə böyük hökmdar Pir Budaq xanın və noyon Yusifin padşahlığında Əmir Səədin

oğlu Pir Hüseynin əmri ilə tikilmişdir.

Türbə Pir Hüseyn türbəsi kimi də tanınırdı.Ermənnilər bu piri "Türkmən məqbərəsi" kimi təqdim edirlər.







# QƏRBİ AZƏRBAYCANDA XRİSTİANLIQ ABİDƏLƏRİ

Qərbi Azərbaycanda xristianlıq abidələrinin taleyi digər abidələrə nisbətən xeyli fərqlidir. Ermənilər sırf azərbaycanlılara məxsus, özündə müsəlmançılığa və türkçülüyə məxsus əlamətləri daşıyan hər şeyə - məscidlərə, ziyarətgahlara, mədrəsələrə, qalalara, qəbiristanlıqlara, türbələrə və s. qarşı düşmənçilik nümayiş etdirirdilərsə, xristian abidələrini erməniləşdirir, onların üzərindəki alban türklərinə məxsus əlamətləri saxtalaşdaraq erməni-qriqoryan kilsəsinə məxsus məbədlər kimi təqdim edirlər. İndiki Ermənistan ərazisində ermənilərə məxsus kilsələrin əksəriyyəti XIX əsrin II yarısı, XX əsrdə tikilmişdir. Orada mövcud olan çoxsaylı qədim xristian məbədlərinin hamısı dəyişdirilmiş alban kilsələridir. O ərazilərdə orta əsrlərdə erməni məbədlərinin olması qeyri mümkündür. Çünki onlar həmin vaxt orada yaşamamışlar.

Alban kilsələri üzərində apardıqları saxtakarlıq işlərinin hamısı son yüzillikdə həyata keçirilmişdir. Təkcə xristian tikililəri deyil, tarixə, kilsəyə aid yazılı mənbələr də məhz son yüzillikdə saxtalaşdırılmışdır. Bu saxtakarlıqlar onların "xidmətdən" istifadə edən ağalarına lazım olduğundan və onlar tərəfindən maliyyələşdirildiyindən bu işlərin görülməsi müasir yüzilliklərə təsadüf edir. Buna görə də Azərbaycanın dini abidələrinin dağıdılması Şimali Azərbaycanın Rusiya imperiyasına daxil edilməsi dövründən başlanmışdı. Hər dövrün xarakterinə uyğun olaraq onun tarixinə, mədəniyyətinə zərərverici həmlələr olmuşdur. Sovet hakimiyyəti dövründə isə ateizmi bayraq edən bolşevik rejimi məscidləri, ziyarətgahları, türbələri, digər tarixi tikililəri bağlamış, insanları həmin tikililəri başqa təyinat istiqamətində istifadə edilməsinə məcbur etmişlər.

Xristian abidələrinə münasibətdə Sovet rejimi Rusiya imperiyasının siyasətini demək olar ki, əvvəlki kimi davam etdirmişdir. Azərbaycanlılara öz dini məbədlərindən istifadə etməyi qadağan etdikləri halda, ermənilərə əlverişli şərait yaradılmış, Azərbaycanın xristian dövrünün tarixini saxtalaşdırmağa, alban məbədlərini erməni-qriqoryan məbədi kimi dəyişdirməyə hər cür köməklik göstərmiş , onların bu hərəkətlərinə dəstək vermişdilər. Təsadüfi deyildir ki, Sovet dövründə Azərbaycanın torpaqları hissə-hissə ermənilərə verilmiş, mədəniyyət sahəsində törədilən erməni təxribatlarına göz yumulmuşdur.

Ermənilərin hər bir sahədə özbaşınalığı SSRİ dağılandan və Cənubi Qafqazda müstəqil dövlətlər yarandıqdan sonra pik həddə çatmışdır. Ermənilərə elə gəlirdi ki, bunu etməklə Azərbaycanın tarixi və mədəni izlərini siləcək, özlərinin burada əbədi yaşamaqlarını təmin edəcəklər.

Aparılan araşdırmalar sübut edir ki, 1828-ci ilə qədər ermənilərin İndiki Ermənistan adlanan ərazidə bir dənə də tarixi izi yoxdur. Onlar yalnız Rusiyanın məqsədli şəkildə bu ərazilərə köçürməsindən sonra Cənubi Qafqazda erməni kilsələri inşa etdilər. 1836-cı ildə Rusiya imperatorunun Albam məbədlərini ermənilərə bəxş etməsindən sonra, onlar bu məbədləri – kilsələri, monastırları, qalaları erməniləşdirərək onun haqqında qondarma əfsanələr yaratdılar.

Xristian dini abidələrinə sonradan yaradılmış və süni şəkildə köhnəldilmiş xaçdaşlarını yerləşdirməklə, məbədlərin arxtekturasını məqsədyönlü şəkildə dəyişərək, onları "qədim erməni abidəsi" kimi qələmə verməyə cəhd edirdilər.

Hazırkı layihə də həmin məqsədə xidmət edir. Layihə çərçivəsində bu kitabın nəşr olunmasında məqsəd əzəli torpaqlarımız olan Qərbi Azərbaycanda xalqımızın tarixi və mədəniyyət abidələrini sistemli şəkildə təqdim etmək, onun haqqında geniş ictimaiyyətdə düzgün və dolğun təsəvvür yaradılmasına dəstək verməkdən ibarətdir.

Cənubi Qafqazda azərbaycan əhalisinə məxsus ərazisində xristianlığın dövlət dini kimi mövcud olduğu IV-V əsrlərdə ölkədə çoxlu xristian məbədləri tikilmişdir. Bununla belə qriqorianlıq türk-tanrıçılıq etiqadı üzərində qurulduğundan xristian alban məbədlərində də türklərin əski etiqadlarının simvol, damğa və işarələri öz geniş əksini tapmışdır.

Xalqımızın xristian dövrünə aid abidələrini xeyli hissəsi qalmaqdadır. Lakin onların üzərinə erməni damğası vurulmuş, bizim üçün yadlaşdırılmağa cəhd edilmişdir. Bizim borcumuz onların həqiqi tarixini və mahiyyətini işıqlandırmaq, onlar üzərindən erməni mifini ayırmaqdır. Onların sayı kifayət qədər çoxdur və bu kitabda onlar haqqında məlumat verməyə çalışmışıq. Onlardan Karbibasar mahalında Üçkilsə, Gərnibasar mahalında Dvin, Göyçə mahalında Sivəng, Zəngəzur mahalında Tatev, Talın mahalında Uzunlar, Vedibasar mahalında Xorvirab, Qırxbulaq mahalında Avan, Putqni, Əştərək rayonunda Pirəgən, Qırmızıvəng, Qarqavəng və yüzlərlə başqa məbədlər bu dövrün əvəzsiz xristian-türk abidələridir.

## ❖ GƏRNİ MƏBƏDİ



Gərnibasar mahalının dağlıq hissəsində, Gərni çayının sağ kənarında, Gög dağın ətəyində, Ellər (indiki Abovyan) rayonunun Baş Gərni kəndi ərazisində qədim türk saray-məbədi. Eramızın 1-ci əsrliyində inşa edilmiş Gərni məbədi bütpərəst məbədi idi. Göründüyü kimi, eyni ərazidə yerləşən Gərni qalasından xeyli sonralar yaradılsa da, eyni mədəni irsin əlamətlərini daşımışdır.

Ərazidə yeni dinlərin gəlişi ilə dağıntılara məruz qalmış məbəd XI əsrdə Hülakü xan tərəfindən bərpa edilmişdir. Məbəd XV əsrdə zəlzələ nəticəsində dağılmış, 1969-1974-cü illərdə yenidən bərpa olunmuşdur.

1827-ci ildə Rusiya –İran müharibəsi zamanı bu məbəd də dağıdılmış, ərazisi xarabaya çevrilmişdir. Bu əraziyə ermənilər ilk dəfə Türkmənçay müqaviləsindən sonra köçürülmüşlər.

## ❖ YERƏRUYK MƏBƏDİ



Qərbi Azərbaycana məxsus Yerəruyk məbədi indiki Ermənistanın Şörəyel mahalının Ağin rayonunda, Arpaçay çayının sol sahilində mövcud olmuşdur. Tədqiqatçılar hesab edirlər ki, bu məbəd regionda xristianlığın ilk çağlarında IV-V əsrlərdə tikilmişdir. Məbəd erkən orta əsr alban bazilikaları ilə eynilik təşkil edir.

Regiondakı erkən orta əsrlərə aid digər xristian məbədlərinə nisbətən bu məbəd daha yaxşı saxlanmışdır. Məbədin bütün yan divarları salamat qalmışdır, lakin onun tavanı, üçnefli zalın arakəsmələri və s. tikililər uçulub dağılmışdır.

Məbədin yerləşdiyi ərazi tarixən türk tayfalarının məskəni olmuşdur.

Məbədin yerləşdiyi əraziyə ermənilərin ilk kütləvi axını XIX əsrin əvvəllərində bölgənin Rusiya imperiyasının işğalından sonra başlanmışdır.

## ❖ TANAAT MƏBƏDİ



Zəngəzur mahalının Sisian rayonunun Ərəfsə (Arevis) kəndi ilə Təzəkənd (Tasik) kəndləri arasında, yüksəklikdə yerləşən Tanaat məbədi alban məbədi olmuşdur. IV-V əsrlərdə tikildiyi güman edilən bu məbəd son əsrlərdə baxımsızlıq üzündən uçub dağılmış, ilkin görkəmini itirmişdir. Maraqlıdır ki, Cənubi Qafqaz ərazisində mövcud olmuş alban məbədləri ya görünüşünə, formasına görə dəyişdirilərək saxtalaşdırılmış, ya da dağıdılmışdır. Tanaat məbədi də ermənilər tərəfindən dağıdılmış, alban kilsəsinin əlamətləri məhv edilmişdir.

Tədqiqatçıların fikrincə bu məbədin mövcudluq tarixi daha qədimdir. Hesab edilir ki, o daha əvvəllər atəşpərəst məbədi kimi fəaliyyət göstərmiş, sonradan xristian məbədinə çevrilmişdir. O, yerli qırmızı daşdan tikildiyindən el arasında "qırmızı kilsə" kimi tanınmışdır. Başqa alban məbədlərində olduğu kimi burada da erməni saxtakarlığının izləri geniş müşahidə edilir. Onun üzərindəki albanlara məxsus əlamətlər dəyişdirilmiş, ətrafda sonradan hazırlanmış xaç daşları yerləşdirilmişdir. Bütün bu işlər ermənilərin buraya kütləvi şəkildə köçürülməsindən sonra – XIX əsrin ortalarından sonra edilmişdir.

## ❖ ŞİRVANCIQ MƏBƏDİ



Şörəyel mahalının Ərtik rayonu ərazisində, Alagöz dağının qərb yamacında, Şirvancıq (Lernakert) kəndində albanlara məxsus xristian məbədinin qalıqları vardır. Təxminən V əsrdə inşa edilmiş bu birnefli bazilikanın qalıqları dövrümüzə qədər gəlib çıxmışdır. Tarix boyu bu abidənin ətrafında azərbaycan-türk əhalisi yaşamışdır.



## ❖ KASAX BAZİLİKASI





Kasax bazilikası Abaran mahalı ərazisində, Abaran rayonunun mərkəzində yerləşir. Mütəxəssislərin fikrincə bu qədim alban məbədi ilk-əvvəl xristianlığa qədərki bütpərəstlərə məxsus olmuş, sonradan xristian məbədinə çevrilmişdir. Məbədin üzərinə onun real tarixinə və dini istiqamətinə ciddi təsir edən dəyişikliklər edilmişdir.

Üçnefli Kasax bazilikası şəklində olan məbəd 1947-1948-ci illərdə ermənilər tərəfindən bərpa olunmuş, alban cizgiləri saxtalaşdırılaraq erməniləşdirilmişdir.

## ❖ ŞAQAKAT KİLSƏSİ



Şaqakat kilsəsi Üçkilsə (Eçmiədzin) rayonu ərazisində yerləşir. Onun 1694-cü ildə sonuncu dəfə yenidən tikildiyi müxtəlif mənbələrdə qeyd olunsa da, barəsində yaradılmış əfsanələrin də uydurma olması istisna edilmir. Bu məbəd qədim köklərə malik olmuş, bir neçə dəfə yenidən qurulmuş, dəyişdirilmişdir.

## ❖ MASDƏRƏ MƏBƏDİ



Masdərə məbədi Ermənistanın Talın rayonunun Masdərə (Dalarik) kəndində, Masdərə çayı kənarında V-VI əsrlərə aid qədim məbəddir. Onun adı da kəndin və çayın adı ilə əlaqəli olmaqla qədim türk köklərini ifadə edir. Bu ərazilərə ermənilərin XVI əsrdən tez olmayaraq gəldikləri fakt onların bu ərazilərin tarixi və mədəniyyət abidələrinə iddialarının əsassızlığını sübut edir. Onların bu regionda yerləşən xristian abidələri üzərində apardıqları saxtalaşdırma əməliyyatları son əsrlərə təsadüf edir.

## ❖ XORVİRAB MƏBƏDİ





VI əsrdə inşa edilməsi ehtimal olunan Xorvirab məbədi Vedibasar mahalında Araz çayı sahilində, qədim Artaşad şəhərinin xarabalıqları yerində, qaya üstə bərqərar olmuş qədim alban məbədidir.

## ❖ AVAN BAZİLİKASI



Avan məbədinin Qırxbulaq mahalında, Ellər (Abovyan) rayonunun eyni adlı kəndində, İrəvandan Baş Gərniyə gedən yolun üstündə qədim xristian məbədi VI əsrin axırlarında inşa edildiyi güman olunur. Hazırda yarımdağılmış vəziyyətdədir. Buna baxmayaraq son dövrlərdə onun üzərindəki yazılara, şəkillərə müdaxilə edilmiş və ermənilləşdirimişdir.

## ❖ UZUNLAR MƏBƏDİ



Uzunlar məbədi Allahverdi (Tumanyan) rayonunun Uzunlar (Odzun) kəndində VI əsrin sonu - V əsrin əvvəlinə aid qədim xristian məbədidir

Gümbəzli bazilika üslubunda tikilmiş məbəd öz adını Uzunlar kəndindən almışdır.

## ❖ YAĞAVERD MƏBƏDİ



Əştərək rayonunun Yağaverd kəndi ərazisində yerləşən qədim alban xristian məbədi VI-V əsrlərə aid edilir. Üçnefli bazilika üslubunda tikilmiş məbədin dağıdılmış qalıqları qalmaqdadır.

## ❖ PUTQUN / PUTQNİ MƏBƏDİ





***Putqun türk məbədi xarabalıqlarının ümumi görünüşü (VI-V əsrlər)***

Qırxbulaq mahalında, Ellər (Abovyan) rayonunun Putqun//Putqni kəndində VI əsrin sonları - V əsrin əvvəllərinə aid qədim arman-türk məbədidir. Bu dördkünclü bazilika bölgədə qədim türk mədəniyyətinin parlaq nümunələrindən biridir.

## ❖ EÇMİƏDZİN MƏBƏDİ



Üçkilsə (Eçmiədzin) rayonu ərazisində xristian məbədi XV əsrin əvvəlində bu ərazidə xristianlığın yayılmasına daha öncəki məbədlərin dağıdılması ilə başlanmışdı. Atəşpərəstlik məbədi daş hasara aldırmış və burada xristian məbədi tikilmişdir.

Həmin vaxtdan bu məbəd dəfələrlə bərpa olunmuş, onun ilkin görkəmi tamamilə dəyişdirilmişdir. Xüsusilə, XV əsrdə böyük dəyişikliklərə məruz qalmışdır.

XV əsrin ortalarından etibarən bu məbəd ətrafına köçməyə başlamışlar və o, dini mərkəzə çevrilmişdir.

## ❖ MÜQƏDDƏS RİPSİME MƏBƏDİ



Müqəddəs Ripsime məbədi Üçkilsə (Eçmiədzin) rayonu ərazisində, Üçkilsə məbədindən təxminən 1 km şərqdə alban xristian məbədidir. Haqqında ermənilərin sonradan dəyişdirdikləri əfsanələr vardır. Sonradan məbədin arxitekturasına ciddi müdaxilələr edilmiş, məzmun dəyişikliyinə gətirən əlavələr edilmişdir.

Xüsusilə XV əsrin ortslsrında məbəd köklü şəkildə bərpa edilərək ona bir çox erməni elementləri əlavə olunmuşdur.

Məbədin ətrafında yerləşən kəndlərdə tarix boyu Türk-Oğuz boyları yaşamışlar. Bu yerlərə ermənilərin ilk gəlişi XV əsrin ortalarına təsadüf edir.

## ❖ QAYANA MƏBƏDİ



Qayana məbədi Üçkilsə (12.03.1945-ci ildən - Eçmiədzin) rayonu ərazisində, Üçkilsə məbədindən təxminən 0,5 km cənubda yerləşən xristian məbədidir. Əsası V əsrdə qoyulub. Bu kilsə də Eçmiədzin kilsələrinə aid olan əfsanələrdə öz yerinə malikdir. Digər kilsələr kimi o da dəfələrlə yenidən qurulmuş, ilkin forma və məzmunu dəyişdirilmiş, erməni təbliğatının və siyasətinin tələblərinə uyğunlaşdırılmışdır.

## ❖ DVİN SARAYI VƏ MƏBƏDİ



Gərnibasar mahalında, Qəmərli (Artaşat) rayonunun Dvin kəndinin xarabalıqlarında aşkar edilmiş qədim saray və məbəd qalıqları qalmaqdadır.

Mənbələrdə onların 350-ci ildə tikildiyi güman edilir. 572-ci ildə farslar tərəfindən dağıdılmış, sonra türksoylu Sembat Baqrat (608-615) tərəfindən yenidən tikilməyə başlanmış və az sonra katolikos Qamata (612-621) tərəfindən tamamlanmışdır. 1236-cı ildə monqol-tatar hücumları zamanı isə Dvin şəhəri tamamilə dağıdılmışdır. .

Dvində tarix boyu - 1828-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. Kəndə ilk ermənilər (36 ailədə 132 nəfər) 1828-ci ildə İrandan köçürülüb gətirilmişlər.

## ❖ HEYDƏRBƏY MƏBƏDİ



Heydərbəy məbədi - qədim alban xristian məbədi Loru mahalının Calaloğlu (Stepanavan) rayonunun Heydərbəy (Sverdlov) kəndi ərazisində yerləşir. VI əsrdə bazilika üslubunda tikilmiş məbəd XIX əsrdə yenidən bərpa olunmuş, eyni zamanda forma və məzmunca dəyişdirilərək erməni-qriqoryan kilsəsi kimi təqdim edilməkdədir.

## ❖ SİSAVƏNG MƏBƏDİ



Sisavəng məbədi Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Qarakilsə (Sisian) qəsəbəsində alban-kilsəsidir.

Məbəd bazalt daşlardan hörülmüşdür. Bu məbəd və Üçkilsədəki Ripsime məbədi ilə oxşardır. Təxminən VI-V əsrlərdə Siyuni alban knyazı Koxazad tərəfindən XX əsrin ortalarında bərpa edilmiş, arxitekturası və üzərindəki naxış və yazılar dəyişdirilərək erməniləşdirilmiş, erməni kilsəsi kimi təqdim edilir.

Bütün Zəngəzur mahalı kimi, Qarakilsə ərazisi də qədimdən Türk-Oğuz boylarının anayurdu olmuş, konkret olaraq Qarakilsə Sisavəng məbədi qəsəbəsinə ilk ermənilər 1890-cı illərdə Türkiyə ərazisindən köçürülüb gətirilmişlər.

## ❖ QIRMIZIVƏNG KİLSƏSİ



Qırmızıvəng kilsəsi Əştərək rayonu ərazisində V əsr alban-türk xristian məbədidir. O, Qərbi Azərbaycan ərazisində kirəmit dam örtüyü qoruyub saxlayan ən qədim tikili sayılır. Məbədin Qırmızıvəng adı da həmin qırmızı kirəmitdən yaranmışdır. Ermənilər bu kilsəni “Karmiravor” (karmir - ermənicədə qırımızı deməkdir) adlandırırlar. Öz kökü ilə alban kilsəsi olan bu məbəd də dəyişdirilərək erməni kilsəsi kimi təqdim edilir.

## ❖ QARQAVƏNG MƏBƏDİ



Qarqavəng məbədi Əştərək rayonu ərazisində, Yağaverd kəndindən 3 km aralıda qədim alban xristian məbədidir. V əsrin yarısında tikilməsi güman edilir.

Sovet hakimiyyəti illərində bu məbəd bərpa edilərkən dəyişdirilmiş, erməni kilsəsi kimi qurulmuşdur.

Qərbi Azərbaycan ərazisində qədimdən məskunlaşan və bir çox toponimlərdə (Qarni, Karbi və s.) izlərini qoyan Qarqar türklərinin adını daşıyan məbədin adını da erməniləşdirərək Zoravar adlandırmışdırlar.

## ❖ TALIN MƏBƏDİ



Bu kilsə Talın rayonunun mərkəzi olan Talın kəndində, Alagöz dağının döşündə qədim alban xristian məbədidir. V əsrdə tikilməsi güman olunan bu məbədin daha sonra – X əsrdə tikilməsi haqqında mülahizələr mövcuddur.

XIX əsrin ortalarında zəlzələ nəticəsində dağılmış, üst örtüyü uçmuşdur. Qərbi Azərbaycanın digər yerlərində olan qədim alban xristian məbədləri kimi bu məbəd də XX əsrin ortalarında bərpa edilərkən məzmunu və forması dəyişdirilərək erməniləşdirilmişdir.

## ❖ QAMSARAKAN MƏBƏDİ



Talın mahalı ərazisində, Talın rayonunun Yuxarı Talın kəndində qədim türk atəşpərəstlik məbədidir. Abidənin atəpərəstlik məbədi olması onun adında da (Qam – atəşpərəstlik kahinlərinə verilən addır) öz əksini tapmışdır. Qamsarakan - yəni As ərlərinin atəşpərəstlik məbədi anlamına gətirir.

Məbədin tikilmə tarixi-V əsrin son rübü - onun kitabələrində aydın göstərilmişdir. Məbəd knyaz Nerses Qamsarakan tərəfindən tikildiyi üçün Qamsarakan məbədi, Talın kəndində mövcud olan ikinci, həm də nisbətən kiçik məbəd olduğu üçün isə Kiçik Talın məbədi adları ilə mənbələrə düşmüşdür.

1947-1948-ci illərdə məbəd ermənilər tərəfindən bərpa edilərək ona bir çox erməni elementləri əlavə edilmişdir.

Qədimdən Türk-Oğuz boylarının anayurdu olan Talın kəndində 1828-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. Kəndə ilk ermənilər (29 ailədə 166 nəfər) 1830-cu ildə Türkiyədən köçürülüb gətirilmişlər.

## ❖ GÖY MƏLƏKLƏRİ MƏBƏDİ



Üçkilsə (Eçmiədzin) rayonu ərazisində, İrəvan - Üçkilsə yolunun üstündə, Üçkilsə şəhəri yaxınlığında qədim xristian-türk məbədidir.

V əsrin 2-ci yarısında katolikos Nerses (641-661) tərəfindən tikilmiş, X əsrdə güclü zəlzələ nəticəsində dağılmışdır. Məbədin xarabalıqları yanında onunla eyni vaxtda tikilmiş saray da aşkar olunmuşdur.

Buradan tapılan 2,7 m hündürlüyündə daş sütun üzərindəki Urartu çarı Rusaya (e. ə. 740-714) məxsus 47 sətir mixi yazı nümunəsi bu məbədin hansısa daha qədim bir məbədin yerində ucaldıldığı fikrini söyləməyə əsas verir.

Hazırda ermənilərin Zvartnos adı ilə dünyaya təqdim etdikləri məbəd əslində qədim türk mədəniyyət nümunəsidir. Məbədin ətrafında yerləşən yaşayış məntəqələrinə ermənilərin ilk gəlişi XVI-XVII əsrlərə, kütləvi gəlişi isə XIX əsrin əvvəllərinə təsadüf edir.

## ❖ TALIŞ MƏBƏDİ



Əştərək rayonunun Talış (Aruç) kəndində qədim alban məbədidir.

VII əsrin 2-ci yarısında (661- 662) inşa edilmişdir. Son vaxtlar arxeoloqlar tərəfindən məbədin yanında eyni vaxtda tikilmiş sarayın qalıqları da aşkar edilmişdir.

XX əsrin ortalarında bərpa olunaraq erməni elementləri və işarələri vasitəsilə dəyişdirilərək erməniləşdirilmişdir.

## ❖ AYSƏSİ MƏBƏDİ



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Aysəsi (Arates) kəndində alban-türk məbədi Aysəsi məbədi adlanır. V-VI əsrlərdə hündür bir təpənin üstündə inşa edilmiş məbəd XI əsrdə bərpa olunduğu və Siyuni mitropolitlərinin yay iqamətgahına çevrildiyi güman olunur.

XX əsrin ortalarında məbəd bərpa edilərkən onda ciddi dəyişikliklər edilmiş, erməniləşdirilmişdir. 1988-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

# ❖ QOŞAVƏNG (HER-HER) MONASTIRI



Qoşavəng (Her-Her) monastırı Dərələyəz mahalının Paşalı (Vayk) rayonunun Her-her kəndindən 1 km Şimal-Şərqdə, dağlar qoynunda qədim alban xristian məbədidir

Qoşa məbəddən ibarət olduğu üçün Qoşavəng adı ilə tanınan məbəd VI-IX əsrlərdə inşa olunmuş, sonrakı əsrlərdə ona bir sıra tikililər əlavə edilmişdir.

Her-her kəndi ətrafında olan qədim qəbiristanlıqda çoxlu qəbirüstü qoç daşları olmuş, bu daşların üzərində kişi, qadın, at, saz, qoyun, kəl və vəhşi heyvanların rəsmləri çəkilmişdi.

## ❖ SİVƏNG QALASI VƏ MƏBƏDİ



Göyçə gölündəki adada qədim türk qalası və məbədi.

Hələ e. ə. 782-ci ildə Urartu çarı I Argiştinin Cənubi Qafqaza yürüşü ilə bağlı mənbələrdə Sivəng qalasından və məbədindən bəhs olunur.

IV əsrdə Maarifçi Qriqori qədim bütpərəstlik məbədi yerində yenisini tikdirmiş, sonra o dağılmış və 874-cü ildə onun yerində xristian təzə məbəd ucaldılmışdır.

Bu alban məbədinin də forma və məzmun cəhətdən dəyişdirilməsi də son yüzilliklərdə həyata keçirilmişdir.

## ❖ TATEV MƏBƏDİ



Tatev məbədi Zəngəzur mahalının Gorus rayonunun Tatev kəndi yaxınlığında alban xristian kilsəsidir. Tarixi məlumatlara görə burada ilk kilsə Apostol Faddeyin Şagirdi Yevstafey tərəfindən tikilmişdir.

1837-ci ildə Eçmiədzin sinodunun qərarı erməni yepiskopuna tabe edilmişdir. Bundan sonra kilsə üzərində saxtalaşdırma əməliyyatları edilmiş, erməniləşdirilmişdir.

## ❖ MAKENİS MƏBƏDİ



Göyçə mahalının Basakeçər rayonunun Makenis kəndində alban xristian kilsəsidir. Dağ dərəsində yerləşən bu məbəd hündür daş hasarla əhatələnmişdir və güclü mühafizəyə malik idi. Onun IX əsrdə inşa olunduğu güman edilir.

## ❖ SƏNAİN MONASTIRI



Sənain məbədi Allahverdi (Tumanyan) rayonunun Sənain kəndində, Çətindağ dağı ətəyində təxminən X əsrdə tikilmiş alban kilsəsidir. O erkən orta əsrlərdə tikilmiş, dəfələrlə dağıntılara məruz qalmışdır.

1940-cı ildə məbəd ermənilər tərəfindən təmir edilərək ona bir çox erməni elementləri əlavə edilmişdir.

## ❖ AĞBAT MONASTR KOMPLEKSİ



Allahverdi (Tumanyan) rayonu mərkəzi olan Manas şəhəri yaxılığında yerləşən Ağbat kəndində qədim alban monastr kompleksi vardır. X əsrdə inşa edilmiş, sonralar dəfələrlə təmir və bərpa olunmuşdur. Məbəd kompleksinə Müqəddəs Nişan, Müqəddəs Qriqor kilsələri, bir sovmə, kitabxana və s. tikililər daxildir. Orta əsrlərdə böyük dini və mədəni mərkəz kimi fəaliyyət göstərmişdir.

Arxeoloji tədqiqatlar məbədin yerində qədimdən bütpərəstlik məbədinin mövcudluğunu təsdiq edir.

Məbəd kompleksi 1950-ci ildə ermənilər tərəfindən bərpa edilmiş və ona bir çox erməni elementləri əlavə edilmişdir.

## ❖ QİNDAVAZ MONASTIRI



Qindavaz monastırı Dərələyəz mahalının Paşalı (Vayk) rayonunun Qindavaz kəndində, Arpa çayının sıldırım qayalıqları arasında boz daşlardan tikilmiş qədim alban məbədidir. Onun tikilməsi X əsrə aid edilir.

## ❖ MAĞARAVƏNG MƏBƏDİ



Mağaravəng məbəd kompleksi Dərəçiçək mahalında, Axta (Razdan) rayonunun Mağaravəng kəndində, Zəngi çayının sağ sahilində alban kilsəsidir. Məbəd kompleksində ən qədim tikili X əsrə aiddir. XI-X əsrlərin yadigarı olan baş məbəd günbəzli zal üslubunda inşa edilmiş, sonradan kompleksə yeni tikililər əlavə olunmuşdur. Məbəd Sovet dövründə - 1940-cı ildə ermənilər tərəfindən bərpa edilərkən ona bir çox erməni elementləri əlavə edilərək saxtalaşdırılmışdır.

## ❖ VAĞUDİ MƏBƏDİ



Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Vağudi kəndindən 2 km cənubda alban kilsəsi vardır. Kilsə kəndin adı ilə Vağudi məbədi adlanır. İki kilsə və yardımçı tikililərdən ibarət olan məbəd kompleksinin XI əsrin əvvəllərində Siyuni alban hökmdarı Smbat tərəfindən tikildiyi məlumdur

Məbəd 1931-ci il zəlzələsində böyük dağıntılara məruz qalmışdır. Ermənilər bu məbəd kompleksini "Vorotnavank" adı ilə erməni kilsəsi kimi təbliğ edirlər.

## ❖ QANLICA MƏBƏDİ



Qanlıca məbədi Düzkənd (Axuryan) rayonunun Yuxarı Qanlıca (Marmaşen) kəndi yaxınlığında, Arpa çayının sahilində X-XI əsrlər alban-türk xristian məbədi. Məbədin divar yazılarından onun X əsrin axırı- XI əsrin əvvəllərində inşa edildiyi bəllidir.

## ❖ KEÇARUS MƏBƏDİ



Keçarus məbədi Dərəçiçək mahalının Axta (Razdan) rayonunun Dərəçiçək (Tsaxkadzor) kəndində, Zəngi çayının sağ sahilində alban kilsəsidir.

Günbəzli dördkünc bina şəklində olan məbəddəki kitabələrdən onun XI əsrdə tikilməsi məlumdur. Məbəd sovet

dövründə bərpa edilərkən arxitekturasına və naxışlarına dəyişikliklər edimiş, erməni kilsəsi kimi tanıdılmışdır.

## ❖ XORAKERT MƏBƏDİ



Loru mahalının Allahverdi (Tumanyan) rayonu ərazisində, Ləlvar dağının qərb ətəyində, meşənin içində yerləşən alban məbədi olan Xorakert kilsəsi X əsrin sonları - XI əsrin əvvəllərində inşa edilmişdir. Son əsrlərdə forma və məzmunca saxtalaşdırmalara məruz qalmış, erməniləşdirilmişdir.

Ermənilərin ilk gəlişi ancaq XIX əsrin əvvəllərinə təsadüf edir.

## ❖ AĞARÇİN MƏBƏDİ



Karvansaray (İcevan) rayonunda, Dilican şəhərindən 18 km Şimalda dağlar qoynunda alban xristian məbədi kompleksi - Ağarçin məbədi yerləşir. O, təxminən X-XI əsrlərə aid edilir. Sonradan yenidən qurularaq dəyişdirilmiş, erməni kilsəsinə çevrilmişdir.

## ❖ XORANAŞAD MƏBƏDİ



Şəmşəddil (Berd) rayonu ərazisində yerləşən alban kilsəsi olan Xoranaşad məbədi X əsrdə tikildiyi güman olunur.

## ❖ QIPÇAQ MƏBƏDİ





Şörəyel mahalının Artik rayonunun Qıpçaq (Ariç) kəndində alban məbəd kompleksi – Qıpçaq məbəd iki kilsə və digər tikililərdən ibarətdir. Bu kompleks erkən orta əsrlərdə burada məskunlaşmış qıpçak türklərinə məxsus olmuşdur.

Sovet dövründə kəndin adı dəyişdirilərək Ariç, məbədin adı isə Ariçavəng qoyulmuşdur.

## ❖ UZUNTALA MƏBƏDİ



Qazax-Şəmləddil sultanlığı ərazisində, Karvansaray rayonunun Uzuntala (Aygehovit) kəndi yaxınlığında, kənddən 3 km cənub-qərbdə meşənin içində alban kilsə kompleksi – Uzuntala məbəd kompleksi olmuşdur.

Vaxtilə daş hasar içində olan məbəd kompleksinə 2 kilsə və yar-

dımçı tikililər daxildir. Həmin daş hasarın isə bu gün ancaq özülü qalmaqdadır. Kompleksin ətrafında həm də qədim yaşayış məskəninin xarabalıqları mövcuddur. Monastır bir neçə dəfə təmir olunmuş, əvvəlki görkəmi xeyli dəyişdirilmişdir.

## ❖ QOŞAVƏNG MƏBƏDİ



Qazax-Şəmşəddil sultanlığı ərazisində, Karvansaray (İcevan) rayonununda, Böyük Qarakilsə (Kirovakan) şose yolunun üstündə, Turşsu bulağının yuxarısında alban xristian məbədini - Qoşavəng məbədi Ermənilər Cuğtağvəng adlandırmışdırlar.

## ❖ QOŞAVƏNG MƏBƏDİ

Qoşavəng məbədi Karvansaray (İcevan) rayonu ərazisində, Dilican yaxınlığında yerləşən Qoş kəndində X-XI əsrlərdən qərar tutmuş alban-türk xristian məbədidir. Bəzi mənbələrdə abidənin "Alban salnaməsi"nin müəllifi Qoş kəndindən olan Mxitar Qoş adı ilə bağlı olduğunu iddia edilir. Məbəd adını Qoş kəndinin adından almışdır.

Sovet dövründə ermənilər kəndin adı ilə yanaşı, məbədin də adını dəyişib Nor Getik qoymuşlar.

## ❖ GÜNEYVƏNG MƏBƏDİ



Güneyvəng məbədi Qazax-Şəmşəddil sultanlığı ərazisində, Karvansaray rayonunun Güney (Kirants) kəndi yaxınlığında, alban monastır kompleksi Güneysu çayının sol sahilində düzənlikdə yerləşən abidə kompleksi 3 kilsədən, bir sıra yardımçı tikililərdən ibarətdir.

Məbəd kompleksi vaxtilə daş divarla əhatələnmiş olsa da, hazırda bu divar dağılmış qalıqları qalmaqdadır.

1967-ci ildə məbəd kompleksinin yaxınlığında yerləşən Güney kəndinin adı dəyişdirilib Kirants qoyulduqdan sonrakı bütün erməni mənbələrində məbədin adı da saxtalaşdırılaraq “Kirants-vank” kimi göstərilmişdir.

## ❖ AMAĞU (ANABAT) MƏBƏDİ



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Amağu kəndindən 2 km aralıda, Arpa çayı ilə Amağu çayı arasında yerləşən XI əsrə aid edilir.

Məbədin ilkin adı Anabat olmuıю, sonralar ermənilər onu Noravəng, yerli camaat isə Amağu məbədi adlandırmışlar. Məbədin epiqrafik yazılarda buranın türksoylu Orbelianların nəsil sərdabəsi olduğu məlumdur.

## ❖ ƏLƏYƏZDƏ HƏRBİ KİLSƏ



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Ələyəz kəndi yaxınlığında hərbi kilsə kimi tanınan məbəd Ələyəzdə hərbi kilsəsi adlanır. Onun təxminən X əsrdə inşa olunduğu güman olunur.

Mütəxəssislərin fikrincə burada kilsənin qarşısındakı daş döşənmiş meydanda əsgərlər yürüşlərdən əvvəl açıq havada ibadət edir, döyüşə gedirmişlər.

## ❖ XANAVƏNG KİLSƏSİ



Əştərək rayonu ərazisində, Kasax çayı kənarında, Xanavəng (Ohanavəng) kəndində yerləşən Xanavəng kilsəsi alban-türk xristian məbədi məlum mənbələrə görə XI əsrdə inşa edilmişdir. Məbədin baş kilsəsi 1216- 1221-ci illərdə tikilmişdir. 1919-cu ildə məbədin günbəzi uçan zaman bütövlükdə məbəd ciddi ziyan çəkmişdir.

Məbəd 1940-1948-ci illərdə ermənilər tərəfindən bərpa olunarkən ona bir çox erməni elementləri əlavə edilmişdir. Bununla belə, məbədin yaxınlığındakı V əsrə aid bazilika qalıqları burada daha qədim məbədin mövcudluğundan xəbər verir.

## ❖ SAQMASAVƏNG MƏBƏDİ



Əştərək rayonunun Saqmasavəng kəndində yerləşən alban-türk xristian məbədi olan Saqmasavəng məbəd kompleksi XI əsrin əvvəllərində tikildiy ehtimal olunur. Məbədin böyük kitabxanası olmuş, bu kitabxanada kitablar, müxtəlif əlyazmalar saxlanılmışdı.

Bu alban məbədi də digər dini abidələr kimi saxtalaşdırmalara və dəyişikliklərə məruz qalmış, erməni kilsəsinə çevrilmişdir.

## ❖ TANAQATI / QARAVƏNG MƏBƏDİ



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Qaravəng kəndində qədim alban-türk xristian məbədi Tanaqat və ya Qaravəng məbədi kimi tanınır.

V əsrdən mövcud olmuş kilsənin üzərində XI əsrdə yenidən qurulmuş və genişləndirilmişdir. 1279-cu ildə onun yerində günbəzli məbəd ucaldılmışdır.

Məbədin divarları qaramtıl bazalt daşlardan hörüldüyündən camaat onu Qaravəng adlandırmışdır. Bütün tarixi mənbələrdə isə Tanaqatı, Tanaat kimi yazıya alınmışdır.

## ❖ GERQAÇ (ƏYRİVƏNG, YUXARIVƏNG, GÖGART) MƏBƏDİ



Bu alban kilsəsi Gərnibasar mahalının Ellər rayonunda, Qoğt(Azat) çayının vadisində, paytaxt İrəvan şəhərindən təxminən 40 km cənub-şərqdə yerləşir.

Monastırın əsası IV əsrdə, mağarada başlanan müqəddəs bulağın yerində qoyulmuşdu. Buna görə də, monastır başlanğıcda Əyrivəng adlanırdı (tərcümədə "mağara monastırı"). Rəvayətə görə, monastırın təsisçisi Maarifçi Qriqori idi. Müxtəlif dövrlərdə məbəd Ayrıvəng, Əyrivəng, Yuxarıvəng, Gögart, Gerqaç adları ilə tanınmışdır ki, bunların hamısı türkcədir. Yerli danışıqda kəndin, məbədin və onların yerləşdiyi dərənin adı Görgəc kimi tələffüz olunurdu.

## ❖ TEĞƏR MONASTIRI



Teğər monastırı Əştərək rayonunun Teğər kəndində, Alagöz dağının ətəyində albanlara məxsus türk xristian məbədidir.

1220-1232-ci illərdə inşa edilmiş, XV əsrdə ətrafı qala divarları ilə əhatə olunmuşdur.

Məbəd 1950-ci ildə ermənilər tərəfindən bərpa edilərək ona bir çox erməni elementləri əlavə edilmişdir.

## ❖ ERDƏPİN MONASTIRI



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Erdəpin (Yeğegis) kəndindən 6 km şimalşərqdə yerləşən qədim Erdəpin monastır kompleksi bir-birindən 200 m aralıda tikilmiş iki kilsədən ibarət olduğu üçün onu Qoşavəng də adlandırmışdır.

Məbədin adı V əsrdən etibarən mənbələrdə çəkilir. Hazırda mövcud olan kilsələrin həmin abidənin yerində XI-XIV əsrlərə tikildiyi ehtimal edilir.

Sovet dövründə ildə kəndin və məbədin Erdəpin adı ermənilər tərəfindən dəyişdirilərək Yeğeqis adlandırılmışdır.

# QƏRBİ AZƏRBAYCANIN KARVANSARA, KÖRPÜ, YAŞAYIŞ EVLƏRİ VƏ S. TARİXİ MEMARLIQ ABİDƏLƏRİ

Qərbi Azərbaycanın tarixi və mədəni irsindən danışarkən qeyd etmək istərdik ki, bu irsi bu və ya digər abidələr, tarixi tikililər, insan fəaliyyətinin konkret sahələrinin məhsulları ilə məhdudlaşdırmaq mümkün deyildir. Bu mədəniyyət, mənəvi irs insanın həyatının bütün sahələrini əhatə edir. İndi bu kitabda əhatə edilən tarixi və mədəniyyət abidələri ucu-bucağı görünməyən mədəni-mənəvi dünyasının cüzi bir hissəsinə aiddir. Azərbaycanın mədəni səviyyəsi bu məkanın insanlarının bütün davranışında, adət-ənənəsində, folklorunda, məişətində, mətbəxində, sənət nümunələrində, mümarlıq abidələrində, dini görüşlərində ifadə olunur. Buna görə də tam məsuliyyəti ilə demək olar ki, indiki Ermənistan dövləti əzəli Azərbaycan ərazisində yaradılmışdır. Bu həqiqəti bizdən daha çox o torpaqları ələ keçirib orada məskunlaşmış və dövlət yaratmış ermənilər başa düşür. Bu səbəbdən də hər an vahimə keçirir, onlara məxsus olmayanların itirilməsinin qorxusunu yaşayır, bu qorxunu gizlətmirlər.

Azərbaycanın indiki Ermənistan ərazisində izlərindən danışarkən çətinliklə üzləşirik: axı hansı izdən danışasan, hansı məsələni ön plana çəkəsən. Bu iş hər şeydə var, dağında, dərəsində, maddi mədəniyyət nümunələrində, toponimikasında. Bəla ondadır ki, hamı üçün aşkar olan bir həqiqəti biz hər an yenidən sübut etməli oluruq. Lakin bu torpaqlarda, mədəni köklərdə marağı olan ermənilər, xüsusən də onların üzərindən öz məkrli siyasətlərini yenidən dünya gücləri bu həqiqətləri görsələr də, qəbul etmək istəmirlər.

Kitabın əvvəlki bölmələrində daha üzdə olan abidələr haqqında məlumatlar verilmişdir. Lakin həmin ərazilərdə onun ticarət əlaqələrinə şahidlik edən karvansaraların, ticarət yollarının, körpülərin, mədəniyyətin ən mərhəm məqamlarını özündə əks etdirən qəbiristanlıqlarının və qəbirüstü abidələrinin, yaşayış evlərinin adlarını çəkməmək olmaz. Onları sadalamaqla qurtaran deyil. Əsası isə odur ki, daha çox dağıntılara məruz qalanda mədəni-mənəvi izlərimizi özündə əks etdirən bu abidələrdir. Burada biz həmin abidələrin bir hissəsini oxucunun diqqətinə təqdim edirik. Eyni zamanda bir daha qeyd edirik ki, onlar dəryada bir damcı kimidir. Bu abidələrin və anlayışların (adların) aşkar edilərək, haqqında məlumat vermək üçün hələ çox işlər görmək lazımdır.

# ❖ QARAKİLSƏ QAYAÜSTÜ TƏSVİRLƏRİ




***Qarakilsə rayonunda qədim türklərə məxsus qayaüstü təsvirlər (e.ə. V-II minilliklər).***

Qərbi Azərbaycanın Zəngəzur mahalının Qarakilsə (indiki Sisian) rayonu ərazisində qayaüstü təsvirlər Azərbaycanın digər yerlərində olan qayaüstü təsvirlərinin tikik nümunəsi olmaqla regionun qədim dövr mədəni həyatında vahid komleksi təşkil edir. Təxminən e.ə. V-II minilliklərə aid edilən bu təsvirlər də Qobustanda olduğu kimi həmin dövrdə insanların həyatı, məşğuliyyəti, fikir və düşüncələri, bədii təfəkkürünü və əhatə olunduqları təbii mühiti əks etdirir. Bu da həmin dövrün əsl sakinləri olan yerli əhalinin – qədim türklərin yaşayış tərzin və şəraitini dərk etməyə imkan verir.

## ❖ SOYUQBULAQ QAYAÜSTÜ TƏSVİRLƏRİ



***Soyuqbulaq kəndində qədim türk qayaüstü təsvirlər (e.ə. minilliklərə aid).***

Qərbi Azərbaycanın qədim tarixi keçmişinə aid olan qayaüstü təsvirləri sırasında indiki Ermənistanın Lori mahalının Voronsovka (Kalinino) rayonunun Soyuqbulaq (Paqaxbyur) kəndi yaxınlığında, Armudlu və Qaçaqqırılan dərələrində ibtidai icma dövrünə aid qayaüstü təsvirlər. Görünüşünə, xarakterinə, ifadə texnikasına görə digər yerlərdə yaşamış türk xalqlarına məxsus qayaüstü təsvirlər yaxındır. Qərbi Azərbaycan ərazisinin ən qədim zamanlardan məskunlaşdığını və həmin vaxtlardan üzü bəri Türk-Oğuz qəbilələrinin yurdu olduğunu sübut edir.

Soyuqbulaq kəndində sonuncu deportasiyaya qədər azərbaycanlılar yaşamışdır.

## ❖ QOŞUNDAŞ ABİDƏLƏRİ





***Qədim türk yurdu Qarakilsədə Qoşundaş daşlarının (e. ə. II minillik).***

Qoşundaş abidəsi iri daşlardan hörülmuş tikili qalıqlarıdır. Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonu ərazisində şaquli vəziyyətdə cərgə ilə düzülmüş daşlardan ibarət Qoşundaş abidəsi Neolit dövrünə aid edilir. Güman edilir ki, bu tikili məbəd funksiyasını yerinə yetirmişdir. Onun adı da güman ki, tikilinin quruluşu ilə bağlıdır. Daşların müəyyən ardıcıllıqla düzülməsi, ibadət edilən yer xüsusiyyəti bu adı əsaslandırmış olur.

Daş düzümünün mərkəzində sərdabə, ətrafında isə açıq havada məbədin divarları yerləşmişdir. Ermənilər abidəni Qoşundaş sözünün tərcüməsi olan Zora-karer adlandırırlar.

## ❖ NÜVƏDİ QARQADAŞI KİTABƏLƏRİ





Qərbi Azərbaycanın ən qədim dövr abidələri sırasında Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndinin Qarqadaşı dağında daş kitabələr xüsusi yer tutur. Qafqazın qədim sakinləri olan Qarqar türklərinə aid bu kitabələr e. ə. I minilliyə aid edilir. 1980-cı illərdə aşkar edilmiş bu kitabələr bir neçə daş lövhədən ibarətdir. Onların ən böyüyünün uzunluğu 1 m, eni 70 sm, ən kiçiyinin uzunluğu 40 sm, eni 32 sm-dir. Bazalt daşlar üzərində göytürk hərfləri ilə qazılmış yazılar bir sıra əlamətlərinə görə .Orxon-Yenisey yazıları ilə oxşardır, lakin quruluşuna görə ondan daha qədimdir.

Nügədi kəndində həmişə azərbaycan türkləri yaşamışdır. 1991-ci ildə bu ərazilər, o cümlədən Nügədi kəndi ermənilər tərəfindən işğal olunmuş, oraya kənardan, xüsusən xarici ölkələrdən gətirilmiş ermənilər yerləşdirilmişlər.

## ❖ AĞUDİ ABİDƏSİ



*Ağudi abidəsi.*

Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Ağudi (Aqitu) kəndində qəbirüstü abidənin qalıqları məlumdur. 9 metr hündürlüyündə olan bu abidə VII əsrə aid edilir.

## ❖ SƏNAN KÖRPÜSÜ

Allahverdi (Tumanyan) rayonunun Sənain kəndi kənarında, Tona (Debed) çayı üstündə birtağlı daş körpü.

1234-cü ildə yonulmuş daş plitələrdən hörülmüş körpünün sol qurtaracağı iri qaya, sağ qurtaracağı isə sahil üzərində dayanmışdır. Sağ tərəfdən körpünün ortasına qədər yol pillələrlə qalxır, sonra isə düz şəkildə davam edir.

Körpü 1940-cı ildə yenidən qurulmuşdur.



***Sənain türk məbədi (XIII əsr).***

## ❖ ÇIRPILI KÖRPÜSÜ

Şörəyel mahalının Ağin rayonunun Çırpılı (Nerkin Crapi) kəndi yaxınlığında, Arpaçay çayı üstündə körpü.



*Çırpılı körpüsü.*

Dəqiq tikilmə tarixi bilinməyən bu körpü Qərbi Azərbaycan ərazisində orta əsrlərə aid ən böyük körpü sayılır.

Hazırda körpünün ancaq sol tağı qalmışdır, Türkiyə ərazisinə düşən sağ tağını isə çay yuyub aparmışdır.

## ❖ QILKÖRPÜ (QABAXLI KÖRPÜSÜ)

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, dərin bir dərədə, Canı çayının üstündə, "Qılkörpü" adı ilə də tanınan körpü.



Qabaxlı ilə Hüseynqulular kəndini və Yazılı qayanın üstündə yerləşən Nəbilər kəndi arasında olan köhnə yolu birləşdirirdi.

Çayın səthindən 6-7 m yüksəklikdə, sıldırım qayanın üzərində tikilmiş birtağlı körpünün uzunluğu 10 m, eni isə 3,5 m olmuşdur.

XIII-XIV əsrlərdə inşa olunduğu ehtimal edilən bu körpünün çayın hər iki sahilində dağılmış qalıqları qalmaqdadır.

## ❖ ŞAH ABBAS SƏLİM KARVANSARASI

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Ələyəz dağının Səlim aşırımında, Ağkənd (Ağcanadzor) kəndindən təqribən 700 m yuxarıda yerləşən karvansara. Səlim aşırımının adı ilə Səlim karvansarası, el arasında isə Şah Abbas karvansarası adlanırdı.



Yonulmuş bazalt daşdan tikilmiş karvansara iki binadan ibarət idi. Uzunluğu 15, eni 7 arşın olan əsas bina şimaldan şərqə doğru uzanırdı. Uzunluğu 45 arşın, eni 21 arşn olan ikinci bina isə birinciyə perpendikulyar tikilmişdi.

Karvansaranın giriş qapısının üst hissəsində yarımdairə şəklində eni 2 m, orta hündürlüyü 1 m olan kitabədə ərəb əlifbası ilə yazılmış məlumatda onun Elxani hökmdarı Əbu Səid Xan Bahadur tərəfindən 1328-29-cu miladi ilində tikildiyi qeyd olunmuşdur.



***Şah Abbas karvansarası (XIV əsr).***

## ❖ AĞKƏND KARVANSARASI

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Ağkənd kəndindən 3 km aralıda, Səlim gədiyinin aşağısında Ağkənd karvansarası yerləşmişdi. Qışda isti, yayda sərin olmaq üçün bina bütünlüklə torpağın altında tikilmişdir. Bir zaldan ibarət olan karvansara iç üzdən yonulmuş bazalt daşlarla, çöl hissəsi isə torpağın altda qaldığı üçün adi daşlarla inşa edilmişdir.

Üçnefli binanın daxili sahəsi 12,2 x 25,1 m, ümumi sahəsi 306 m-dir.

Sağ və sol tərəflərdə hər cərgədə 9 dayaq olmaqla cəmi 18 dayaq yonulmuş daşlarla bir-biri ilə möhkəm birləşdirilmişdir.

Səlim karvansarasının zalı ilə Ağkənd karvansarası zalı arasındakı fərq yalnız ikincidə axur və su kanalının olmamasındadır. Bu oxşarlıq onların hər ikisinin Əbu Səid Xan Bahadur (1316- 1335) tərəfindən tikildiyini söyləməyə əsas verir.

Karvansaranın yaxınlığında yerləşən Ağkənd kəndində 1918-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamılar. Kəndə ilk ermənilər (cəmi 172 nəfər) 1923-1925-ci illərdə köçürülüb gətirilmişlər.



***Ağkənd karvansarasının interyeri (XIV əsr).***

## ❖ SINIQ KARVANSARA



Zəngəzur mahalının Gorus rayonunun Yaycı (Qarjis) kəndi yaxınlığında, qədim Urud yolunun üstündə türk-müsəlman abidəsi olan Sınıq karvansara yerləşmişdir. Bölgədəki bir sıra digər eynitipli karvansaralar Sınıq Karvansara da Azərbaycan Elxanilər dövlətinin hökmdarı Əbu Səid Bahadur xan tərəfindən qədim İpək Yolunun üstündə tikilmişdir. Elə buna görə də o, bəzən Əbu Səid Karvansarası da adlanmışdır. Şəkilli karvansaranın giriş qapısının üstündəki iri daşın üzərində ərəb əlifbası ilə fars dilində yazılar və 698-ci hicri tarixi yazılmışdır ki, bu da abidənin 1319-cu il miladi tarixdə tikildiyini təsdiq edir. Karvansaranın “Sınıq” adlanması isə tədqiqatçıların fikrincə onun tikiliş forması ilə izah olunur.

## ❖ ALIXAN PƏYƏSİ KÖRPÜSÜ



Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Səlim çayının üstündə, Qoytul kəndi ilə Həsənkənd kəndi arasında, hazırda xarabalıqları qalan Alıxan pəyəsi kəndinin aşağısında biraşırımlı Alıxan pəyəsi körpüsü yerləşmişdi. Hazırda Səlim çayının sağ sahilində körpünün bir hissəsi qalmaqdadır. Körpünün uzunluğu 30 m, eni 4 m, hündürlüyü 9 m olmuşdur.

Körpünün Elxani hökmdarı Süleyman xan (1340-1344) tərəfindən tikdirilməsi güman edilir.

## ❖ HƏSƏNKƏND KÖRPÜSÜ

Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonunun Həsənkənd (Şatin) kəndində, Səlim çayının üstündə birtağlı daş körpü XIII əsrdə türksoylu Çesar Orbelian tərəfindən inşa edilmiş, XVII əsrdə bütünlüklə yenidən bərpa olunmuşdur. Körpünün uzunluğu 12 m, eni 2,67 m, hündürlüyü 3,5 m-dir.



***Həsənkənd körpüsü (XIV əsr).***

## ❖ ƏNGƏLƏVİT ABİDƏLƏRİ



***Əngələvit kəndinin köhnə qəbiristanlığında türk-xristian qəbirüstü abidələri.***

Zəngəzur mahalı ərazisində, Qarakilsə (Sisian) rayonunun Əngələvit (Angeğaqot) kəndinin köhnə qəbiristanlığında orta əsrlərə aid türk-xristian qəbirüstü abidələri qalmaqdadır.

## ❖ GİRƏTAĞDA DAŞ ABİDƏ



Zəngəzur mahalının Qafan rayonunun Yuxarı Girətağ kənd qəbiristanlığında daş abidə yerli camaat arasında “beldaşı” adı ilə tanınır. Bu daş abidənin üzərində uzun bir ox şəkli həkk olunmuşdur. Daşın bir üzündə əlində nizə, çiynində ox-yay atlı təsvir edilmişdir. Atlı əlindəki nizəni atın ayaqları altında çabalayan əjdahanın ağzına yeritmişdir. Daşın digər üzündəki təsvirdə ovçu əlindəki silahla dağ təkəsini nişan almışdır. Ondan yuxarıda isə su kuzəsi və qalxan şəkilləri həkk olunmuşdur.

Qədimdən azərbaycanlıların yaşadığı Yuxarı Girətağ kəndinə ermənilərin ilk gəlişi Qərbi Azərbaycan türklərinin 1988-ci il soyqırımından sonrakı dövrə təsadüf edir.

## ❖ ARZUMAN KÖRPÜSÜ



Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Dərəbas kəndində orta əsrlərə aid birtağlı daş körpü mövcuddur. Yazılı mənbələrdə adı 844-cü ildən çəkilən və ətrafı qədim qəbir və abidələrlə zəngin olan Dərəbas kəndi qədimdə yerləşən bu körpü də kəndin özü qədər qədimdir.

## ❖ LƏMBƏLİ KÖRPÜLƏRİ

Loru mahalının Barana (Noyemberyan) rayonunun Ləmbəli (Debedaşen) kəndində Tona (Debed) çayı üstündə körpü tağlarının qalıqları qalmaqdadır.



*Qədim türk-oğuz kəndi olan Ləmbəlidə körpü dayaqları (XVI-XVIII əsrlər).*

Ləmbəli kəndi ilə Sadaxlı kəndini birləşdirən üç qədim körpü aran Borçalısı ilə dağ Borçalısını birləşdirməklə tarixi İpək Yolunun üstündə yerləşmişdir.

XVI-XVIII əsrlərin yadigarı olan bu körpülər XIX əsrdə Rusiya-İran müharibələri zamanı dağıdılmışdır.

Ləmbəli kəndində qədimdən azərbaycanlılar yaşamışdır. Yalnız 1948-ci ilə qədər azərbaycanlıların deportasiyasından sonra ermənilər buraya köçürülmüşlər.

## ❖ OŞAKAN KÖRPÜSÜ



Karbi mahalı ərazisində, Əştərək rayonunun Oşakan kəndində, Kasax çayı üstündə daş körpü XVIII əsrin əvvəllərində tikilməsi ehtimal olunur. Bu beştağlı körpünün tağları arasında dalğayaran qurğular tikilmişdir. Öz quruluşuna, inşa texnologiyasına görə unikal bir tikili olmaqla diqqəti cəlb edir.

## ❖ İRƏVAN KARVANSARALARI

İrəvan Şəhəri Qafqazın mühüm ticarət mərkəzlərindən olduğu üçün burada çoxlu karvansaralar mövcud olmuşdur. Şəhərin ruslar tərəfindən işğalından sonra mənbələrdə şəhərdə 7 karvansaranın olduğu qeyd olunmuşdur. onlar Gürcü karvansarası, Culfa karvansarası, Zöhrabxan karvansarası, Tahir karvansarası, Sulu karvansara, Susuz karvansara, Hacı Əli karvansarasıdır. Bişmiş kərpicdən tikilmiş və əsasən şəhərin mərkəzində, Bazar meydanının ətrafında yerləşən bu karvansaraların XVI- XVIII əsrlərdə inşa olunması güman olunur.



***İrəvanda Ovşar karvansarası (XVI-XVII əsrlər).***



***İrəvanda 78 dükanlı Gürcü karvansarası (XVI-XVIII əsrlər).***

## ❖ SOYLAN KÖRPÜSÜ



Dərələyəz mahalının Paşalı (Vayk) rayonunda, Soylan (Vayk) kəndində Arpa çayı üstündə körpünün XVII əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Uzunluğu 30 metrə çatan körpünün sağ tərəfi Arpa çayının səthindən 32 metr yüksəklikdə olan sıldırım qayanın üstündə, sol tərəfi isə çayın sol sahilində çay səviyyəsindən 12 m yüksəklikdəki sıldırım qayanın üstündə 13,5 x 4,5 m ölçüdə daş hörgünün üzərində qərar tutmuşdur. Körpünün orta sütunun üzərində ərəb əlifbası ilə yazılmış kitabə mövcuddur. Ermənilər buradakı kəndlərə Azərbaycan türklərinin 1905-1906-cı il soyqırımından sonra köçürülüb gətirilmişlər.

## ❖ KASAX KÖRPÜSÜ



*Kasax körpüsü (XVII əsr).*

Əştərək rayonu ərazisində, Kasax çayı üstündə üçtağlı daş körpü XVII əsrə aid edilir. Körpünün böyük və orta tağları arasında üçkünc formada dalğayaran tikili inşa edilmişdir. Uzunluğu 17 m, eni 5 m olan bu körpünün yanındakı digər körpü qalıqları burada qədimdən (bəzi ehtimallara görə XII əsrdən) başqa bir körpünün olduğunu söyləməyə əsas verir.

## ❖ QIRMIZI KÖRPÜ



İrəvan şəhərində ikitağlı körpü Zəngi çayı üstündə XVII əsrin II yarısında tikilmişdir. Qırmızı daşdan hörüldüyündən Qırmızı körpü, Zəngi çayı üstündə salındığından Zəngi körpüsü adlanmışdır.

Ümumi uzunluğu 80 m, hündürlüyü 11 m, eni 4,8 m olan bu ikitağlı körpünün hər iki tərəfdə əlavə su axını üçün bir kiçik keçidi da vardır.

## ❖ GEDƏR KÖRPÜSÜ



Gedər körpüsü İrəvan şəhərində birtağlı körpü. 1664-cü ildə Zəngi çayının qolu olan Gedər çayı üstündə qırmızı daşdan tikilmişdir

***İrəvan da Gedər körpüsü (XVII əsr).***

## ❖ AŞIQ ƏLƏSGƏRİN QƏBİRÜSTÜ ABİDƏSİ

Göyçə mahalının Basarkeçər rayonunun Ağkilsə kənd qəbiristanlığında Azərbaycan aşıq sənətinin ən böyük nümayəndəsi Aşıq Ələsgərin qəbirüstü abidəsi qoyulmuşdu.

1971-ci ildə aşığın anadan olmasının 150 illiyi Azərbaycan xalqı tərəfindən geniş qeyd edilmiş və qəbri üstündə büstü ucaldılmışdır.

Buraya 1988-ci ildə gəlmiş ermənilər kəndi işğal etdikdən sonra həm kəndin qəbiristanlığını, həm də Azərbaycan aşıq sənətinin dahisi Aşıq Ələsgərin qəbrini və qəbirüstü abidəsini məhv etmişlər.



***Aşıq Ələsgərin qəbirüstü abidəsi.***

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. *Ə.Ələkbərli. Qərbi Azərbaycan abidələri . Bakı, 2007*
2. *Ə.Ələkbərli. Qədim Türk-Oğuz yurdu- "Ermənistan", B., 1994*
3. *Faiq İsmayılov. Qərbi Zəngəzur abidələri, Bakı, 2023*
4. *И.Шопен. Исторический памятник состояния армянской области к эпоху ее присоеденения к Российской империи, С-п.,1852*
5. *Гюнай Гафарова. Поиятники Западного Азербайджана. Баку, 2013*
6. *Б. Пиотровский. Урарту. (Древнейшее государство Закавказья), Л., 1939*
7. *В.Арутюнян, С.А.Сафарян. Памятники армянского зодчества, М., 1951*
8. *Х.Вердиева, «Переселенческая политика Российской им-перии в Северном Азербайджане (XIX - начале XX вв.)», Баку, 2016.*

# MÜNDƏRİCAT

Giriş..........3

Azərbaycan ərazilərinə erməni köçünün tarixindən..........5

Cənubi Qafqazda Rusiya siyasətində erməni amili..........12

Qərbi Azərbaycanda sarayları, qalaları..........17

Qərbi Azərbaycanin musəlman abidələri..........29

Qərbi Azərbaycanda xristian abidələri..........46

Karvansara, körpü, yaşayış evləri və s. tarixi memarlıq abidələri..........82

İstifadə olunmuş ədəbiyyat..........98

“REFPOLIGRAF” nəşriyyatı, 2023
Çapa imzalanmışdır 25.10.2023. Sifariş № .
Kağız formatı 60x84 1/16. Tiraj 150.